AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

12 avqust 2016-cı il № 49-52 (9055) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### Bakı-Aktau və əks istiqamətdə yükdaşımaların həcmi artıb

***Bu barədə "Qazaxıstan Dəmir Yolları" SC-nin prezidenti Askar Maminin rəhbərlik etdiyi nümayəndə heyətinin Ələt qəsəbəsindəki yeni Bakı Limanına işgüzar səfəri zamanı məlumat verilib.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov qonaqlara limanın fəaliyyət prinsipləri, burada tətbiq olunan və dünya standartlarına cavab verən prosedurlar barədə danışıb.

Səh. 3

### BAKI-TBİLİSİ-QARS YENİ DƏMİR YOLUNUN GÜRCÜSTAN HİSSƏSİNDƏ TİKİNTİ İŞLƏRİ DAVAM EDİR

***Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısının Gürcüstan hissəsində tikinti işləri davam edir.***

"Azərbaycan Dəmir Yolları"nın mətbuat xidmətindən bildirilib ki, Gürcüstan hissəsində işlər dörd mərhələdə (Marabda - Tetriskaro - 29,2 kilometr, Tetritskaro-Salka - 49,7 kilometr, Salka-Axalkalaki - 74,1 kilometr, Axalkalaki - Kartsaxi - 26,3 kilometr) həyata keçirilir.

Səh. 4

### KÜR VƏ ARAZ ÇAYLARINDA BİOGEN MADDƏLƏRİN MİQDARI NORMANI KEÇİB

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının, həmçinin onların qollarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə iyul ayının üçüncü ongünlüyü üçün növbəti monitorinq keçirib.***

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Kür çayında su sərfi iyul ayının ikinci ongünlüyünə nisbətən saniyədə 130 kubmetr azalıb.

Səh. 6

### "Asan imza" sertifikatlarını necə yeniləmək olar?

***"Asan imza" sertifikatlarını yeniləmək çox sadədir.***

Vergilər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazirlik tərəfindən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi məqsədilə 2013-cü ilin iyun ayından etibarən Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) hüquqi və fiziki şəxslərə sertifikat xidmətinin göstərilməsi ilə bağlı fəaliyyətə başlayıb.

Səh. 7

### OLİMPİYA OYUNLARINDA AZƏRBAYCANA İLK MEDALI CÜDOÇU RÜSTƏM ORUCOV QAZANDIRDI

***Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında Azərbaycan yığma komandası ilk medalını avqustun 8-də qazandı.***

Olimpiadada mübarizəyə 1/16 finaldan başlayan cüdoçumuz bu mərhələdə Qazaxıstan təmsilçisi Didar Hamzanı məğlub etmişdi. R.Orucov səkkizdəbir finalda Jake Bensted (Avstraliya) üzərində ipponla qələbə qazanmışdı. Azərbaycan idmançısı dörddəbir finalda "London-2012" Olimpiya Oyunlarının gümüş mükafatçısı, Macarıstan təmsilçisi Miklos Unqvarini məğlub etmişdi.

Səh. 8

# PREZİDENT İLHAM ƏLİYEV: "BİZ BİR-BİRİMİZİ DƏSTƏKLƏYİRİK, BİR-BİRİMİZƏ İNANIRIQ, BİR-BİRİMİZƏ GÜVƏNİRİK"

## "Xəzər dənizi bizim ümumi sərvətimizdir"




***Avqustun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin üçtərəfli Zirvə görüşü keçirildi. Bakıda üçtərəfli formatda baş tutan Zirvə görüşü beynəlxalq və regional miqyasda iri layihələrin əsas təşəbbüskarlarından və icraçılarından biri olan, təşəbbüsləri təkcə Azərbaycanın deyil, beynəlxalq aləmdə hamının maraq və mənafelərinə cavab verən ölkəmizin dünyanın aparıcı dövlətləri üçün etibarlı və inamlı tərəfdaş olduğunu bir daha sübut edir.***

Zirvə tədbirinin ev sahibi kimi ilk çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, əsrlər boyu yanaşı yaşayan xalqlarımızı ortaq tarix və coğrafiya birləşdirir. Azərbaycanı həm İran, həm Rusiya ilə sıx dostluq əlaqələri bağlayır. Bu əlaqələr son illərdə daha da inkişaf etmiş və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

İran, Rusiya və Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Bu ölkələr həmişə BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyirlər. Azərbaycan İran ilə İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində, Rusiya ilə ATƏT, MDB, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edir.

Dövlət başçımız xüsusilə vurğulamışdır ki, Azərbaycan İrana və Rusiyaya tətbiq olunan beynəlxalq sanksiyaların əleyhinə olmuşdur və öz mövqeyini dəfələrlə açıq şəkildə bildirmişdir. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət beynəlxalq hüquq normalarına, ədalətə və ölkəmizin milli maraqlarına əsaslanır. Qonşularımızla yaxın əlaqələr milli maraqlarımıza tam cavab verir.

Xatırladaq ki, İran və Rusiya Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşırlar. Hər iki ölkə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həll olunmasını dəfələrlə bəyan etmişdir.

Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. BMT, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyirlər. Münaqişə ilə bağlı mövcud olan status-kvo qəbuledilməzdir. Münaqişə beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Münaqişənin həll olunması üçün ilk növbədə Azərbaycan əraziləri işğaldan azad edilməlidir.

Dövlətimizin başçısı regionda söz sahibi olan hər iki ölkənin dövlət başçılarının diqqətinə çatdırmışdır ki, uzun illərdir Azərbaycanın ərazi bütövlüyü pozulub, torpağımızın 20 faizi işğal altındadır. Bu işğaldan bir milyondan artıq azərbaycanlı əziyyət çəkir. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, bu qətnamələr 20 ildən artıqdır ki, icra edilmir.

Yaşadığımız regionda risklər və təhdidlərin artdığna diqqət yönəldən Azərbaycan Prezidenti beynəlxalq terrorizmə qarşı səylərin daha da birləşdirməsi zəruriliyini vurğulamışdır: "Əslində bütün dünya səylərini birləşdirməlidir. Biz ancaq bu halda beynəlxalq terrorizmə qalib gələ bilərik. Azərbaycanın terrorizmə qarşı mübarizədə prinsipial mövqeyi dəyişməzdir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının üzvü kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliklə bağlı mühüm məsələləri müzakirəyə çıxarmış, beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi təşəbbüsünü irəli sürmüşdür."

2012-ci ilin may ayında Təhlükəsizlik Şurasında Azərbaycanın sədrliyi ilə "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda keçirilmiş yüksək səviyyəli iclası xüsusi qeyd edən dövlətimizin başçısı bildirmişdir ki, iclasın yekununda bəyanat qəbul olunmuş, terrorun bütün formaları və təzahürləri bir daha pislənmişdir.

Hər üç ölkəni daim maraqlandıran mühüm məsələlərdən biri də Xəzərin statusudur. Həmin məsələyə toxunan Azərbaycan Prezidenti demişdir ki, bizi birləşdirən Xəzər dənizi bizim ümumi sərvətimizdir. Xəzər dənizi sülh və əməkdaşlıq dənizidir və belə də qalmalıdır. Xəzər dənizinin ekosisteminin qorunması bütün Xəzəryanı ölkələrin ümumi işidir. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir. Xəzər dənizində zəngin neft-qaz yataqları yerləşir. Xəzərin Azərbaycan sektorunda İran və Rusiya şirkətləri neft-qaz yataqlarının işlənməsində 20 ildir ki, iştirak edir, böyük sərmayə qoyur. Öz növbəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR Xəzərin İran və Rusiya sektorlarında aparılan işlərdə iştirak etməkdə maraqlıdır.

Dövlətimizin başçısı üçtərəfli formatın iqtisadi əməkdaşlığı daha yüksək səviyyəyə qaldırmaq üçün yaxşı imkanlar yaradacağına əminliyini ifadə etmişdir: "Rusiya və İran bizim əsas ticarət tərəfdaşlarımızdandır. Əminəm ki, üçtərəfli format ölkələrimizin biznes strukturları üçün də faydalı olacaq. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, qarşılıqlı ixrac imkanlarının genişləndirilməsi iqtisadi əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edir. Maliyyə, bank, sığorta sektorunda əməkdaşlığın yaxşı perspektivləri vardır. Ölkələrimizin geniş maliyyə imkanlarını nəzərə alaraq biz başqa ölkələrdə müştərək investisiya layihələrində iştirak edə bilərik.

"Azərbaycanda sərmayə qoyuluşu üçün münbit şərait yaradılmışdır. Son 20 ildə Azərbaycana 200 milyard dollar investisiya yatırılıb. Bunun yarısı xarici sərmayədir. Kənd təsərrüfatı, turizm, telekommunikasiya sahələri sərmayə qoyuluşu üçün böyük potensiala malikdir. Davos Dünya İqtisadi Forumunun qlobal rəqabət qabiliyyətliliyi indeksində Azərbaycan 40-cı yerə layiq görülüb.

Elektroenergetika sektorunda əməkdaşlıq uğurla aparılır. Azərbaycan həm İran, həm də Rusiya ilə öz enerji xətlərini birləşdirib. Hər iki ölkə ilə enerji mübadiləsinin həcmi ildən-ilə artır. Rusiya ilə mövcud olan sazişə əsasən Azərbaycanın enerji sistemi Rusiyanın Vahid Enerji Sistemi ilə paralel iş rejimində fəaliyyət göstərir. İki ölkənin enerji sistemlərini "Xaçmaz-Dərbənd" və "Yalama" elektrik veriliş xətləri birləşdirir. İran ilə də hazırda "Parsabad", "Astara-Astara", "Araz" və "Culfa" elektrik veriliş xətləri ilə enerji mübadiləsi həyata keçirilir. Bir neçə gün əvvəl İmişli və Parsabad arasında elektrik xətti də birləşdirildi. Masallı və Astara şəhərləri arasında isə elektrik xətti yaxın gələcəkdə tam istismara veriləcəkdir.

Artıq Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. İxrac potensialımız artır. Əminəm ki, birgə səylərlə biz etibarlı enerji dəhlizinin formalaşmasına nail ola bilərik. Bu dəhliz üç ölkə arasında enerji mübadiləsini və yeni bazarlara çıxışı təmin edə bilər.

Sərhəd mühafizəsi işində də etibarlı əməkdaşlığın mövcudluğuna toxunan dövlətimizin başçısı bildirmişdir ki, Azərbaycan tərəfinin təşəbbüsü ilə bu il İran, Rusiya, Azərbaycan sərhəd xidmətlərinin rəhbərləri Bakıda görüş keçirmişlər. Bu sahədə əməkdaşlığın dərinləşməsi, birgə təlimlər (o cümlədən Xəzər dənizində), birgə tədbirlər, operativ informasiya mübadiləsi ölkələrimizin təhlükəsizliyini daha da möhkəmləndirəcək.

Zirvə görüşündə müzakirə edilən mühüm məsələlərdən biri də nəqliyyat sektorunda əməkdaşlığın genişləndirilməsi idi. Bu sahədə əməkdaşlıqdan danışarkən ölkəmizin rəhbəri demişdir: "Nəqliyyat sektorunda əməkdaşlığın çox gözəl və ümidverici gələcəyi vardır. Azərbaycan dünyada yeganə ölkədir ki, həm İran, həm Rusiya ilə sərhədi var. Hazırda Rusiya ilə Azərbaycan arasında dəmir yolu əlaqəsi mövcuddur. Bu il biz qərar qəbul etmişik ki, yaxın gələcəkdə Azərbaycan İran sərhədinə qədər öz dəmir yolunu uzatsın. Ümid edirəm ki, biz yaxın aylarda buna nail olacağıq.

***(Davamı 2-ci səhifədə)***

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

**№ 288** **QƏRAR** **Bakı şəhəri, 2 avqust 2016-cı il**

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 213 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 mart tarixli 827 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 67, № 10, maddə 1321; 2016, № 3, maddə 584) ilə təsdiq edilmiş "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 4.4-cü bəndində (hər iki halda) "383420621" rəqəmləri "440050998" rəqəmləri ilə əvəz edilsin.

**Artur Rasi-zadə,**
**Azərbaycan Respublikasının Baş naziri**

DƏNİZ

12 avqust 2016-cı il № 49-52 (9055)

# PREZİDENT İLHAM ƏLİYEV: "BİZ BİR-BİRİMİZİ DƏSTƏKLƏYİRİK, BİR-BİRİMİZƏ İNANIRIQ, BİR-BİRİMİZƏ GÜVƏNİRİK"










*(Əvvəli 1-ci səhifədə)*

Eyni zamanda, bu yaxınlarda Azərbaycan-İran sərhədində Astaraçay üzərində dəmiryolu körpüsünün təməlqoyma mərasimi keçirilib. Bu infrastruktur layihələri "Şimal-Cənub" nəqliyyat dəhlizinin ayrılmaz tərkib hissəsidir.

"Şimal-Cənub" nəqliyyat dəhlizi strateji əhəmiyyət daşıyan transmilli layihədir. Gələcəkdə bir çox ölkələr bu dəhlizdən istifadə edəcəklər. Bu dəhlizin çox böyük iqtisadi səmərəsi vardır. Tranzit yüklərin daşınması üçün vaxt baxımından da bu yol çox əlverişlidir. Ümid edirəm ki, birgə səylərlə bu layihənin icrasına tezliklə nail olacağıq."

Dövlətimizin başçısı daha sonra bildirmişdir ki, ölkələrimizdə dini və milli məsələlərdə heç bir problem yoxdur. Bu, bizim ölkələrimizin qazandığı dəyər və sərvətdir.

Azərbaycan əsrlər boyu müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Tarix boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh, qardaşlıq şəraitində yaşayıblar. Multikulturalizm Azərbaycanda həyat tərzidir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilib.

Azərbaycan nadir dövlətlərdəndir ki, həm İslam Əməkdaşlıq Təşkilatında, həm də Avropa Şurasında təmsil olunur. Ölkələrimiz bu təşkilatlar daxilində uğurla əməkdaşlıq edir.

"Yaratdığımız yeni üçtərəfli əməkdaşlıq formatı böyük potensiala malikdir. Bu, çox önəmli, yeni geosiyasi təşəbbüsdür. Üçtərəfli əməkdaşlıq regionda sülhün, təhlükəsizliyin, sabitliyin təmin olunmasına xidmət edəcəkdir. İqtisadi əməkdaşlıq, energetika, nəqliyyat sektorlarında üçtərəfli əməkdaşlıq xalqlarımızın rifah halının yaxşılaşmasını təmin edir. Əsasını qoyduğumuz bu format beynəlxalq aləmdə özünə layiq yerini tutacaq. Biz bu gün mehriban qonşuluq nümunəsini göstəririk. Biz bu gün sübut edirik ki, əgər qarşılıqlı hörmət, xoş niyyət varsa, arzularımız səmimidirsə hətta bizim qeyri-sabit, böhran və münaqişələrlə dolu olan regionumuzda ölkələrimizi risklərdən qoruya, sabitliyi möhkəmləndirə, əməkdaşlığı dərinləşdirə bilərik,- deyə Azərbaycan Prezidenti qeyd etmişdir.

## Müxtəlif potensiallardan istifadə, enerji məsələləri, habelə geosiyasi, coğrafi mövqe üç qonşu ölkə arasında əlaqələrin genişləndirilməsi baxımından böyük bir fürsətdir

Azərbaycan tərəfinin hələ bu ilin əvvəlində irəli sürdüyü üçtərəfli Zirvə görüşü təşəbbüsünə Tehranın dərhal razılıq verməsini səmimi şəkildə əsaslandıran İran İslam Respublikasının Prezidenti Həsən Ruhani çıxışında qeyd etmişdir ki, İran İslam Respublikasının xarici siyasətinin prinsiplərinə əsasən qonşu ölkələrlə əlaqələrin genişləndirilməsi əsas götürülür. Ona görə də İran hər hansı bir təşəbbüsə, razılaşmalara, anlaşmalara tərəfdardır. İran, Azərbaycan və Rusiya arasında olan üçtərəfli görüş fikir mübadiləsinə, ortaq mənafelərin yaranmasına imkan verir. İran İslam Respublikası bu ideyanı yüksək dəyərləndirir. Şübhəsiz ki, bu üçtərəfli görüşün keçirilməsi regionda təhlükəsizliyin möhkəmləndirilməsi, ölkələrimizin əlaqələrinin genişləndirilməsi və dərinləşdirilməsi üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Bu üç qonşu ölkə regionda geosiyasi və coğrafi baxımdan mühüm önəmə malikdir.

Prezident Həsən Ruhani daha sonra demişdir: "Ölkələrimiz siyasi, iqtisadi, mədəni, sosial, texnologiya sahələrində bir sıra təhlükələrlə üz-üzədir. Bu, onların qarşılıqlı anlaşmaya nail olmasını əvvəlkindən də artıq zəruri edir. Biz İran İslam Respublikasında inanırıq ki, indiki şəraitdə müxtəlif təhdidlərlə üzləşən bir ölkənin təkbaşına fürsətlərdən yararlanma imkanı olmayacaq. Hər ölkənin xalqının rifah və firavanlığı üçün başqa ölkələrlə, xüsusilə qonşu ölkələrlə əməkdaşlıq lazımdır. İranın xarici siyasəti başqa ölkələrlə, xüsusilə qonşu ölkələrlə əməkdaşlıq, habelə müştərək mənafeyə əsaslanır. Bu sahədə aparılan müzakirələrin, danışıqların faydalı olduğunu hiss edirik.

İran Prezidenti xatırlatmışdır ki, bu qəbildən olan görüşlərin keçirilməsinə, müzakirələrin aparılmasına əsaslı bir tələb vardır: "Müxtəlif tarixi, mədəni, dini və sosial sahələrdə ortaq dəyərlər, habelə mövcud potensiallardan zamanında yararlanmaq üçtərəfli əlaqələrin genişlənməsi üçün fürsətlər yaradır. Müxtəlif potensiallardan istifadə, enerji məsələləri, habelə geosiyasi, coğrafi mövqe üç qonşu ölkə arasında əlaqələrin genişləndirilməsi baxımından böyük bir fürsətdir. Digər tərəfdən, terrorizm, ekstremizm, ekoloji sahədə müxtəlif problemlərin yaranması, mütəşəkkil cinayətkarlıq və digər problemlərlə mübarizə hər üç ölkənin anlaşmaya nail olmasını tələb edir."

Son illərdə dünyada baş verən dəyişikliklər, əməkdaşlıq və ortaq fikrə sahib olmaq bu problemlərə üstün gəlməyin mümkünlüyünü göstərir. Görürük ki, potensialdan istifadə etmək mümkündür. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında müxtəlif sahələrdə əlaqələrdə çox müsbət dəyişikliklər baş verib. Bu iki ölkə arasında yaxşı qonşuluq münasibətləri var, əlaqələrin genişlənməsi üçün müxtəlif təşəbbüslər irəli sürülüb. Ticari-iqtisadi əməkdaşlığın genişlənməsi baxımından gömrük sahəsində əməkdaşlıq, elektrik xətlərinin, habelə dəmir yollarının birləşdirilməsi ilə bağlı anlaşmalar, Astaraçayın üzərində körpünün salınması, həmçinin Xudafərin su mənbəyindən müştərək istifadə edilməsi kimi faktları göstərmək olar.

İran hesab edir ki, üç ölkənin eyni mövqeyə, qarşılıqlı etimada sahib olması müxtəlif sektorlarda, xüsusilə mədəni, iqtisadi sahələrdə potensialı üzə çıxarmağa imkan yaradacaq.

## Xəzər problemlərinə dair üçtərəfli dialoq da Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya üzərində işin tezliklə tamamlanmasına şərait yaradacaq

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin çıxışında bildirmişdir ki, Azərbaycan və İran Rusiya üçün mehriban qonşular və mühüm tərəfdaşlardır: " Biz bir-birimizlə səmərəli əməkdaşlıq üzrə zəngin təcrübə toplamışıq. Sözsüz ki, bu gün biz münasibətlərimizdə yeni səhifə açırıq, üçtərəfli formatda qarşılıqlı fəaliyyətə start veririk. Bizim fikrimizcə, bu cür formata ehtiyac olması aşkardır. Üç ölkəni birləşdirən əsas amil geniş əhatəli regional və qlobal məsələlərə yanaşmanı əlaqələndirməyə hazır olmağımız, ticari-iqtisadi sahədə çoxplanlı praktiki əməkdaşlığı bundan sonra da genişləndirmək istəyimizdir. Onu da qeyd edim ki, bütün dövlətlər, hər halda çoxsaylı dövlətlər bu cür problemlərlə üzləşir. Bu, davam edən qlobal iqtisadi böhrana da, gərginliyə də aiddir. Bizim ölkələr üçün bu, çox cəhətdən onunla bağlıdır ki, indicə dediyim gərginlik sizin və bizim sərhədlərdə xeyli dərəcədə mövcuddur. Mən həm Əfqanıstanı, həm də Yaxın Şərqi, qeyri-sabitlik zonalarını və qaynar münaqişələri, ilk növbədə İŞİD, "Cəbhət ən-Nusra" və digər terror təşkilatları tərəfindən artmaqda olan terror təhlükəsini nəzərdə tuturam. Bütün bunlar bizim üçün real təhlükədir. Bu problemlərin həlli yollarını birgə axtarmaq istəyi ölkələrimizin daha sıx qarşılıqlı əlaqəsini tənzimləmək zərurətini şərtləndirir."

Prezident Vladimir Putin Rusiyanın nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edən bəzi məsələləri qeyd edərkən demişdir: "Məsələn, beynəlxalq terror təşkilatlarının fəaliyyəti barədə informasiya mübadiləsinin fəallaşdırılmasını məqsədəuyğun hesab edirik. Bu, ölkələrimizin ərazisindən silahlıların, silahların və narkotiklərin tranzitinin qarşısının daha səmərəli alınması üçün lazımdır.

Ümid edirik ki, Xəzər problemlərinə dair üçtərəfli dialoq da Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya üzərində işin tezliklə tamamlanmasına şərait yaradacaq. Əminəm ki, Konvensiyanın imzalanması və onun müddəalarının reallaşdırılması Xəzəryanı beş ölkənin hamısının mənafelərinə uyğundur."

Nəqliyyat infrastrukturu sahəsində əməkdaşlığın perspektivi barədə cənab Vladimir Putin özünəməxsus ümidlərindən bəhs edərkən bildirmişdir: "Mən Azərbaycan Prezidentinin artıq qeyd etdiyi "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin Qərb şaxəsinin yaradılması planlarını nəzərdə tuturam. Energetika sahəsində ilk növbədə Xəzər regionunda neft-qaz yataqlarının kəşfiyyatı və işlənməsi layihələrinin reallaşdırılmasını prioritet hesab edirik. Biz hasil edilən xammalın daşınması üçün boru kəməri infrastrukturundan birgə istifadə edilməsinin qarşılıqlı faydalı sxemlərini də müzakirə etməyə hazırıq."

Rusiya Federasiyasının Prezidenti qonşuların – Rusiya, Azərbaycan və İranın əməkdaşlığımnın gələcəkdə də praqmatik, qarşılıqlı faydalı xarakter daşıyacağına və ölkələrimizin xalqlarının köklü maraqlarına cavab verəcəyinə, bütün Xəzər regionunun dinamik inkişafı üçün yeni imkanlar yaradacağına əminliyini ifadə etmişdir.

## Nəqliyyat, energetika sahələrində əməkdaşlıq üçün çox gözəl imkanlar var

Zirvə görüşünə sədrlik edən və birgə bəyannamənin imzalanmasından əvvəl yekun nitqi söyləyən dövlətimizin başçısı qeyd etmişdir ki, Azərbaycanın Rusiya və İranla, Rusiyanın İran ilə əlaqələri çox yüksək səviyyədədir. Bu əlaqələrin inkişafı imkan verir ki, bu gün biz yeni bir əməkdaşlıq formatı haqqında nəinki danışaq və onu yaradaq. Bu gün imzalanacaq birgə Bəyannamə həm görülən işləri, bizim niyyətimizi, mövqeyimizi, eyni zamanda, gələcəyə baxışlarımızı əks etdirir.

Möhtərəm Prezidentimiz daha sonra bildirmişdir ki, yaşadığımız region çox mürəkkəbdir, risklərlə, təhdidlərlə dolu bölgədir. Əfsuslar olsun ki, bu risklər azalmır, getdikcə artır. Belə olan halda üçtərəfli əməkdaşlıq regional təhlükəsizlik üçün əsas şərtdir.

Cənab İlham Əliyev qeyd etmişdir ki, Rusiya-İran-Azərbaycan üçtərəfli əməkdaşlığı bölgədə sabitləşdirici amildir: "Hesab edirəm ki, biz birgə səylərlə həm ölkələrimizi mümkün olan risklərdən qoruyacağıq, eyni zamanda, geniş mənada regionda əməkdaşlığı dərinləşdirəcəyik.

Biz qonşuyuq. Biz mehriban qonşuluq şəraitində yaşayırıq və bu birliyi möhkəmləndirməliyik. Eyni zamanda, iqtisadi sahədə ixrac potensialımızın, ticarət dövriyyəsinin artırılması istiqamətində əlavə tədbirlər görüləcək. …Xüsusilə nəqliyyat, energetika sahələrində əməkdaşlıq üçün çox gözəl imkanlar var. Bu əməkdaşlıq üç ölkənin səyi ilə yaranıbdır və bir çox ölkələr buna qoşulacaq. Yaradacağımız "Şimal-Cənub" nəqliyyat dəhlizi ölkələrimizin həm təhlükəsizliyini, həm də iqtisadi maraqlarını təmin edəcəkdir."

Prezident İlham Əliyev xüsusilə vurğulamışdır ki, bu üç ölkənin əməkdaşlığının təməlində səmimi münasibətlər, xoş niyyət durur: "Bəzən qonşular arasında problemlər, bəzən münaqişələr olur. Xoşbəxtlikdən bizim aramızdakı əlaqələr ancaq dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında qurulubdur. Biz bir-birimizi dəstəkləyirik, bir-birimizə inanırıq, bir-birimizə güvənirik.

Biz həm bölgəyə, həm dünyaya çox gözəl əməkdaşlıq formatını nümayiş etdiririk. Əminəm ki, bu Zirvə görüşünün nəticələri çox uğurlu olacaq. Bəyannamədə əks olunan bütün məsələlər icra ediləcək və beləliklə, xalqlarımız daha da yaxşı, təhlükəsizlik, sülh, rifah, əmin-amanlıq şəraitində yaşayacaq."

Sonda hər üç ölkənin rəhbərləri - Azərbaycan Prezidenti İlham Əliyev, İran Prezidenti Həsən Ruhani və Rusiya Prezidenti Vladimir Putin Zirvə görüşünün Birgə Bəyannaməsini imzalamışlar.

***"DƏNİZ"***

# I Avrasiya konfransı dünyanın enerji nəhənglərini Bakıda bir araya gətirəcək

***Avqustun 28-31-də Bakıda Enerji İqtisadiyyatı üzrə Beynəlxalq Assosiasiyanın (IAEE) I Avrasiya konfransı keçiriləcək. Məqsəd dünyanın enerji nəhənglərini Azərbaycanın paytaxtında bir araya gətirməkdir. Konfransda Xəzər dənizinin enerji resursları ilə bağlı xüsusi panellər və sessiyalar təşkil ediləcək. Azərbaycanın enerji resurslarının Avropa bazarlarına çatdırılmasında iqtisadi cəhətdən ən səmərəli variant məhz Türkiyədən keçən boru kəmərləridir. TANAP Avropanın enerji təchizatının şaxələndirilməsinə mühüm töhfələr verəcək. Xəzər dənizində TANAP-ı təmin edəcək kifayət qədər təbii qaz ehtiyatı var. "Türk axını" layihəsi TANAP-a alternativ deyil.***

Bütün bu məsələlər barədə AZƏRTAC-a məxsusi müsahibəsində Enerji İqtisadiyyatı üzrə Beynəlxalq Assosiasiyanın prezidenti Gürkan Kumbaroğlu məlumat verib. Müsahibəni təqdim edirik.

**- Bakıda I Avrasiya konfransının keçirilməsində məqsəd nədir?**

- Konfransın Bakıda təşkil olunması ilə bağlı qərar 2015-ci il mayın 24-də IAEE-nin Antalyada keçirilən İdarə Heyətinin iclasında qəbul edilib. I Avrasiya konfransının keçirilməsində məqsəd dünyanın enerji nəhənglərini Bakıda bir araya gətirmək və IAEE-də Xəzər dənizi regionuna istiqamətlənən fəaliyyətləri inkişaf etdirməkdir. IAEE-nin bu bölgə ilə bağlı fəaliyyətlərinə dair tək bir konfransla kifayətlənmək olmaz. Biz mütəmadi formada və davamlılığını təmin etmək məqsədilə yeni bir regional formalaşmanı da yaratmağı düşünürük. Enerji İqtisadiyyatı üzrə Beynəlxalq Assosiasiya Orta Asiya regionunun mərkəzinin məhz Bakıda qurulması istiqamətində də işlərini davam etdirir.

**- Sizcə bu konfransın tarixən neft ölkəsi olan və son dövrlərdə öz təbii qazı ilə Avropa bazarlarına çıxmağa hazırlaşan Azərbaycan üçün hansı müsbət cəhətləri olacaq?**

- Konfransın əsas mövzusu da məhz Xəzər dənizi regionunun enerji iqtisadiyyatındakı çətinliklər və yeni imkanlardır. Məqsədimiz Xəzər bölgəsinə dair mövzuları bütün istiqamətləri ilə vacib aktorlarla beynəlxalq səviyyədə müzakirə etməkdir. Konfransda Xəzər dənizinin enerji resursları ilə bağlı xüsusi panellər təşkil ediləcək. Məsələn, "Xəzər enerjisinin potensialını aşkara çıxarmaq" adlı sessiyada Azərbaycan tərəfdən moderator olmaqla, Rusiya, İran və Qazaxıstandan natiqləri bir araya gətirəcəyik.

**- Azərbaycan ilə Türkiyə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri kimi layihələri həyata keçiriblər. İki ölkənin qardaşlıq əlaqələrinin enerji sahəsindəki bu uğurlarını necə qiymətləndirirsiniz?**

- Bu qəbildən birgə enerji layihələri "Bir millət, iki dövlət" olan Azərbaycan-Türkiyə qardaşlığının və dostluğunun təzahürüdür. Türkiyə ilə Azərbaycan enerji sahəsində bir-birini tamamlayan iki dövlətdir. Türkiyədə Azərbaycanın texnologiya və investisiya ehtiyacını təmin edəcək təcrübə, Azərbaycanda isə Türkiyənin enerjiyə olan tələbatını ödəyəcək təbii resurslar var. Azərbaycanın enerji resurslarının Avropa bazarlarına çatdırılmasında iqtisadi cəhətdən ən səmərəli variant məhz Türkiyədən keçən boru kəmərləridir.

**- Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi ilə Azərbaycan təbii qazının Türkiyə və Avropaya nəql edilməsinin qitənin enerji təchizatının və infrastrukturunun şaxələndirilməsi baxımından əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- TANAP qaz boru kəməri ilə 2023-ci ildə 23 milyard kubmetr, 2026-cı ildə 31 milyard kubmetr təbii qazın nəql olunması planlaşdırılır. Bunlar böyük rəqəmlərdir. Məhz buna görə də TANAP-ın Avropanın enerji təchizatının şaxələndirilməsinə mühüm töhfəsi olacaq. TANAP təkcə enerji təchizatının şaxələndirilməsi yox, Türkiyənin təbii qaz üzrə bir mərkəz, yəni, müxtəlif mənbələrdən gələn qazın alınıb satıldığı mərkəz olmasına şərait yaradacaq.

**- TANAP-la İran, Şimali İraq və İsrail qazının Avropaya nəql edilməsi mümkündürmü?**

- Əlbəttə mümkündür. Lakin TANAP-ın 31 milyard kubmetrlik ötürücülük qabiliyyətinin bu qədər fərqli mənbədən təbii qazı qəbul etməsinin yetərli olmayacağını və yeni investisiyaların qoyulmasına ehtiyac yaranacağını düşünürəm. Bundan başqa, Xəzər dənizində çox böyük qaz ehtiyatları var. TANAP layihəsinin prioriteti isə məhz Azərbaycanın təbii qazının nəql olunmasıdır. Lakin Xəzər dənizindəki digər ehtiyatların da çıxarılaraq Avropaya daşınması mümkündür. Əgər Xəzər dənizinə investisiya qoyularsa burada TANAP-ı təmin edəcək kifayət qədər təbii qaz ehtiyatı yaranar.

**- Sizcə "Türk axını" qaz boru kəməri (Turkish Stream) layihəsi TANAP-a alternativdirmi? Bu layihə ilə bağlı hələ də qeyri-müəyyənlik davam edir. Bununla əlaqədar fikirlərinizi bilmək maraqlı olar.**

- Avropanın təbii qaza olan tələbatı günbəgün artmaqda davam edəcək. Fərqli təşkilatların təklifləri isə bu mövzu ilə bağlı eyni istiqamətdə bənzər nəticələri ortaya qoyur. Əgər Rusiya qazını Almaniya ərazisindən Avropaya daşıyacaq "Şimal axını 2" (Nord Stream 2) layihəsi həyata keçirilməsə, "Türk axını" layihəsi Avropa üçün bir zərurət olacaq. Həmçinin Avropa İttifaqı daxilində "Şimal axını 2" layihəsinin reallaşmasına müxalif olanlar var. Buna görə də "Türk axını" layihəsinin önü açıqdır.

"Türk axını" layihəsini TANAP-a alternativ görmürəm. TANAP Avropanın təbii qaza olan tələbatını hər cəhətdən ödəyəcək layihədir. Avropanın həm "Türk axını"ndan, həm də TANAP-dan gələn təbii qaza ehtiyacı var.

**- SOCAR Türkiyədə enerji sahəsində bir çox layihə həyata keçirir ("Petkim", "Star" neft emalı zavodu, "Petlim" konteyner limanı və sair). SOCAR TANAP layihəsi də daxil olmaqla, Türkiyəyə təxminən 20 milyard dollar investisiya qoyacaq və qardaş ölkənin "Ən böyük investoru" olmaq yolunda irəliləyir. Sizcə, SOCAR-ın Türkiyə iqtisadiyyatına hansı faydaları var?**

- Boru kəməri layihələrində olduğu kimi, SOCAR-ın Türkiyədə əsas oyunçu olması "Bir millət, iki dövlət" deyiminin təzahürüdür. Hesab edirəm ki, daha çox Azərbaycan şirkətləri Türkiyəyə gəlməli, türk şirkətləri də Azərbaycana böyük investisiyalar qoymalıdır. Hər iki ölkə özlərinin güclü potensialından qarşılıqlı şəkildə faydalanarsa, bunun yaradacağı sinerjidən daha da böyük iqtisadi birlik ortaya çıxacaq. Türkiyə ilə Azərbaycan Orta Asiya və Avrasiyada öz təsirini göstərəcək yeni iqtisadi formalaşmaların önünü aça bilər.

# BAKI-AKTAU VƏ ƏKS İSTİQAMƏTDƏ YÜKDAŞIMALARIN HƏCMİ ARTIB

***Bu barədə "Qazaxıstan Dəmir Yolları" SC-nin prezidenti Askar Maminin rəhbərlik etdiyi nümayəndə heyətinin Ələt qəsəbəsindəki yeni Bakı Limanına işgüzar səfəri zamanı məlumat verilib.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov qonaqlara limanın fəaliyyət prinsipləri, burada tətbiq olunan və dünya standartlarına cavab verən prosedurlar barədə danışıb. Qeyd edib ki, yüklərin qeydiyyatı operativ şəkildə, minimum bürokratik gecikmə ilə qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilir. Yeni Bakı Limanında əcnəbi sürücülərin dincəlməsi üçün müvafiq şərait yaradılıb, liman və bank xidmətləri isə günün 24 saatı işləyir.

Qonaqların diqqətinə çatdırılıb ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə yükdaşımanın həcmi 30 faizdən çox artıb. Tranzit yüklərin əsas artım istiqaməti Bakı-Aktau



və əks istiqamətdə qeydə alınıb. Belə ki, iri həcmli nəqliyyat vasitələri və digər avtomobillərin 53 faiz, TEU ekvivalentində konteynerlərin isə 20 faizi Bakı-Aktau-Bakı istiqamətində baş tutub.

"Qazaxıstan Dəmir Yolları" SC-nin prezidenti Askar Mamin Azərbaycanla əlaqələrə xüsusi diqqət ayırdıqlarını qeyd edib. Onun sözlərinə görə, həm Aktau limanı, həm də inşası həyata keçirilən Kurık limanı Xəzər dənizində yükdaşımanın həcminə müsbət təsir göstərəcək. Buradan yeni Bakı Limanına hərəkət edəcək mövcud və yeni bərələrdən istifadə olunacaq. Ən əsası isə Kurik ətrafında yeni Bakı Limanında olduğu kimi Azad Ticarət Zonası yaradılacaq. Təkcə Kurik limanının gündə 5 bərəyə xidmət göstərərək, ildə əlavə 4 milyon ton yükün aşırılmasını təmin edəcəyi gözlənilir. Bununla da, ümumiyyətlə Çinlə Avropanı birləşdirən Yeni İpək Yolu boyunca hərəkət edən yükün həcmi artmış olacaq.

Xatırladaq ki, Qazaxıstanın baş nazirinin müavini Bakitjan Saqintayev cari ilin fevral ayının 15-də yeni Bakı Limanının fəaliyyət prinsipləri ilə tanış olmaq üçün Azərbaycana rəsmi səfər edib. Həmin dövrdən başlayaraq, Bakı və Aktau limanlarının əməliyyat prinsiplərinin sinxronlaşdırılması üçün qarşılıqlı səfərlər, təcrübə mübadiləsi həyata keçirilir.

# "ÖLKƏMİZDƏ YELKƏNLİ İDMAN NÖVÜNÜN GƏLƏCƏYİ VAR"



***Ölkəmizdə ilk dəfə olaraq Azərbaycan Yelkənli İdman Federasiyası və Park Bulvar AVM-nin birgə təşkil etdiyi yelkən festivalı keçirildi.***

Festivalda Azərbaycan Yelkənli İdman Federasiyasının prezidenti Qüdrət Qurbanov, gənclər və idman naziri Azad Rəhimov, dövlət rəsmiləri və digər idman federasiyalarının rəhbərləri iştirak etdilər.

29-31 iyul tarixlərində Park Bulvar AVM-nin 1-ci mərtəbəsində keçirilən festivalda federasiyanın prezidenti Q.Qurbanovun açılış nitqində Azərbaycanda yelkənli idmanın inkişaf etdirilməsi sahəsində federasiyanın həyata keçirdiyi proqramlardan və gələcək dövr üçün hədəflənən planlardan danışdı: "Azərbaycan idman yarışlarında böyük uğur əldə edib. Bu da ölkə Prezidenti İlham Əliyevin idmana olan qayğısının bariz nümunəsidir. Gənc nəsil arasında yelkənli idman növü inkişaf edir. İdmançıların məşqinə şərait yaratdığı üçün Gənclər və İdman və Təhsil nazirliklərinə minnətdarlığımızı bildirmək istəyirik. 2016-cı ildə yelkənli qayıq üzrə dünya çempionatı Azərbaycanda keçiriləcək. Bu da önəmli hadisədir".

Festivalda çıxış edən gənclər və idman naziri Azad Rəhimov Xəzər dənizi sahilində yerləşən Bakıda uzun illər yelkən görmədiyi üçün təəssüfləndiyini bildirdi: "Prezident dəfələrlə vurğulayıb ki, Azərbaycan idman ölkəsidir. Bu şüar bizim qarşımızda böyük məqsədlər qoyur. Azərbaycanda bütün idman növləri inkişaf etməlidir. Belə düşünürəm ki, bizim coğrafi mövqeyimiz yelkən idman növünün Azərbaycanda daim inkişafda olmasına şərait yaradır. Federasiya qısa müddətdə yay məktəbi təşkil edib. Bu da idmanın inkişafını göstərir. Bu gün federasiyada maddi-texniki baza möhkəmlənir və yeni gələn idmançılar üçün imkanlar yaranır. Bu idman növünün gələcəyi var".

Festivalın açılış mərasiminin ilk hissəsində ölkəmizdə Yelkənli İdman Federasiyasının fəaliyyəti və yelkənli idmanın tarixindən bəhs edən sənədli filmin təqdimatı oldu. Filmdə yelkən idmanının Azərbaycanda inkişaf tarixi, SSRİ dövründə fəaliyyəti və müstəqil Azərbaycan tarixində Heydər Əliyevin idmana xüsusi diqqəti və qayğısı nəticəsində yelkənli idmanın yenidən dirçəlməsi, ilk Azərbaycan yelkənli idman üzrə milli yığma komandasının formalaşması haqqında kadrlar öz əksini tapıb.

Filmin ardından festivala tərəfdaş olan "Zuleykha" jurnalının kreativ direktoru Lalə Mirzəyeva, Park Bulvar AVM-nin ictimaiyyətlə əlaqələr üzrə rəhbəri Günay Malikqızı festival ilə bağlı fikirlərini paylaşıb və əməkdaşlıq çərçivəsində görülən işlərdən söz açdılar.

Festivalın ikinci hissəsi əyləncəli yelkən guşəsinin açılışı ilə davam etdirildi. Guşədə yelkənli idmanla bağlı rəngarəng hədiyyəli oyunlar, maraqlı viktorinalar, musiqili proqram, əyləncə zonası, fotoguşə fəaliyyət göstərdi.

Sonra İtaliyanın Krotone şəhərində keçirilən "2016 Optimist üzrə Avropa Çempionatı"ndan yenicə vətənə qayıdan milli yığma komandamız və Yelkənli İdman Federasiyasının məşqçisi Seyhun Yıldız festival iştirakçılarını yelkən idmanı haqqında maraqlandıran suallara cavab verdi.

Qeyd edək ki, festival 3 gün müddətində Park Bulvar AVM-nin birinci mərtəbəsində bütün qonaqların üzünə açıq idi.

***Tahir DADAŞOV***

# İlk şəhərciyin salınacağı ərazi müəyyənləşdirilib



***Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi ölkə vətəndaşlarının güzəştli şərtlərlə mənzilə sahib olmasını təmin etmək məqsədilə ilk layihəsinin icrasına başlayır.***

Agentlikdən bildirilib ki, artıq ilk şəhərciyin salınacağı ərazi müəyyən edilib. Vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunacaq ilk mənzillər Bakı şəhəri, Yasamal rayonu, Xarici Dairəvi Avtomobil yolunun kənarında yerləşən və sahəsi 11,6 hektar təşkil edən ərazidə tikiləcək. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə sözügedən ərazi agentliyin tabeliyində olan və çoxmənzilli binaların tikintisinin sifarişçisi qismində çıxış edən "MİDA" MMC-nin sərəncamına verilib.

Vətəndaşların əlverişli şərtlərlə əldə edəcəyi mənzillərin tikilməsi planlaşdırılan ərazinin seçilməsi zamanı insanların rahat yaşayışı üçün zəruri olan bütün amillər nəzərə alınıb. İlk güzəştli mənzillərin inşa olunacağı ərazi şəhərin ekoloji cəhətdən təmiz, sağlam və əlverişli hissəsində yerləşir. Bu əraziyə bitişik şam ağaclarından ibarət 5 hektara yaxın yaşıllıq zonası mövcuddur. Eyni zamanda, seçilmiş ərazinin paytaxtın əsas iş yeri mərkəzlərinə yaxınlığı insanların çox vaxt itirmədən öz iş yerlərinə çatmasına imkan verəcək. Bu məqsədlə şəhərciyin salınacağı ərazidə yeni təşkil ediləcək nəqliyyat sisteminin Bakı şəhərinin mövcud nəqliyyat şəbəkəsi ilə inteqrasiyası da layihə çərçivəsində nəzərə alınacaq.

Şəhərcikdə çoxmənzilli binalarla yanaşı, vətəndaşların zəruri ehtiyaclarının ödənilməsini təmin etmək məqsədilə müvafiq sosial infrastrukturun (məktəb, uşaq bağçası və sair) yaradılması, habelə məişət və xidmət obyektlərinin istifadəyə verilməsi də nəzərdə tutulur.

Seçilmiş ərazidə çoxmənzilli binaların tikintisinə başlanılması üçün artıq şəhərsalma əsaslandırılmasının hazırlanması başa çatmaq üzrədir. Tezliklə tikintinin işçi layihəsinin hazırlanmasına başlanılacaq və layihələndirmə işləri bitdikdən sonra dərhal inşaata start veriləcək. Artıq mühəndis-kommunikasiya sistemlərinin çəkilməsi ilə bağlı müvafiq dövlət qurumları ilə texniki şərtlərin alınması işlərinə başlanılıb. İnşa ediləcək binalar yaşayış üçün zəruri olan rabitə və kommunal xidmətləri ilə tam təmin olunacaq. İlkin hesablamalara görə, şəhərcikdə 2 minə yaxın mənzil tikiləcək.

Agentlik vətəndaşların güzəştli şərtlərlə mənzil ilə təmin edilməsini nəzərdə tutan vəzifələrin layiqincə yerinə yetirilməsini və bu layihənin uğurla reallaşdırılması istiqamətində bütün zəruri tədbirləri həyata keçirir.

# Azərbaycanda yaşlı insanların sayı artıb

***Azərbaycanda hazırda yaşı 65 və ondan yuxarı insanların sayı 597 min 500 nəfərdir.***

Bu barədə Dövlət Statistika Komitəsinin rəsmi statistik məcmuəsində məlumat verilib.

Statistik rəqəmlər bu il Azərbaycanda yaşlı insanların sayında artım müşahidə olunduğunu göstərir. Belə ki, yaşı 65 və ondan yuxarı insanların sayı 1990-cı ildə 341 min 200 nəfər, 2005-ci ildə 547 min 400 nəfər, 2010-cu ildə 535 min nəfər, 2014-cü ildə 553 min 700 nəfər, 2015-ci ildə isə 570 min 700 nəfər olub.

Rəsmi nəşrdə o da bildirilir ki, ölkəmizdə 2016-cı ilin əvvəlinə 14 yaşınadək əhalinin sayı 2 milyon 186 min 200 nəfər, 15-64 yaşlı əhalinin sayı isə 6 milyon 921 min 200 nəfər təşkil edir.









# Dəniz gəzintisində hər şey uşaqların ürəyincə idi

***Avqustun 2-də Nəsimi rayonu orta məktəblərinin təhsildə və idmanda fərqlənən şagirdləri, həmçinin aztəminatlı ailələrin uşaqları üçün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Üfüq" sərnişin gəmisi ilə dəniz gəzintisi təşkil edilmişdi.***

Bakı buxtasında dəniz gəzintisi zamanı uşaqlar Xəzərin seyrinə dalmış, dənizdən paytaxtımızın gözəlliyinə heyranlıqla tamaşa etmişlər. Gəzinti boyu üz-gözlərindən sevinc əskik olmayan uşaqlara məlumat verilmişdir ki, yüksək komfortlu və sürətli "Üfüq" Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin ən müasir sərnişin gəmilərindəndir. Gəmiçiliyin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa edilən "Üfüq" cari ilin aprelində istismara verilmişdir.

Dəniz gəzintisi zamanı uşaqlar həmçinin gəmidə onlar üçün təşkil edlən müxtəlif tədbirlərin, əyləncəli oyunların iştirakçısına çevrilmiş, öz istedad və bacarıqlarını nümayiş etdirmişlər.

Yaxt klubdan başlanan və bir neçə saat davam edən dəniz gəzintisi uşaqlarda xoş təəssürat yaratmışdır. Hər şeyin onların ürəyincə olduğunu isə 120 uşağın hər birinin təbəssümündən də hiss etmək o qədər də çətin deyildi.

***"DƏNİZ"***

# 5 KÜÇƏ YENİDƏN QURULACAQ

***"Sovetski" kimi tanınan ərazidə uzunluğu 6,1 kilometrədək 5 küçə yenidən qurulacaq.***

"Azəravtoyol" ASC-nin mətbuat xidmətindən bildiriblər ki, Bakı şəhərinin yol infrastrukturunun yaxşılaşdırılması, əhalinin və avtonəqliyyat vasitələrinin rahat hərəkətinin təmin edilməsi istiqamətində mühüm işlər görülür. Bu işlər sırasında, hələ ötən əsr ərzində ölkə paytaxtının inkişafı ilə bağlı hazırlanmış şəhərsalma sənədlərinə uyğun olaraq, Füzuli küçəsini genişləndirilməklə Nəriman Nərimanov prospekti ilə birləşdirəcək yeni prospektin salınması və həmin prospekt boyunca yaşıllıq zolaqlarının yaradılması nəzərdə tutulur. Bu layihə çərçivəsində son illər xüsusilə nəzərəçarpan addımlar atılıb. Belə ki, 2014-cü ildə prospektin Səməd Vurğun küçəsi ilə Füzuli meydanı arasında olan hissəsinin çəkilməsi, prospekt boyunca Mərkəzi Parkın salınması və ətraf yolların genişləndirilməsi başa çatdırılaraq sakinlərin istifadəsinə verilib.

Hazırda Bakı şəhəri Yasamal rayonunun "Sovetski" kimi tanınan ərazinin 26 hektarında yolların salınması və abadlıq işlərinin aparılması nəzərdə tutulur. Bura 23 hektar sahədə yaşıllaşdırma və abadlıq işləri, 3 hektar sahədə isə avtomobil yollarının tikintisi işləri daxildir. Bu işlər çərçivəsində Füzuli meydanından Nəriman Nərimanov prospektinə qədər və Təzəpir məscidi istiqamətində yolların genişləndirilməsi və inşası işlərinin aparılması, habelə yeni yaşıllıq zolaqlarının yaradılması nəzərdə tutulur.

Sözügedən ərazilərdə "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti tərəfindən ümumi uzunluğu 6,1 kilometrədək 5 küçədə əsaslı şəkildə yenidənqurma işləri həyata keçiriləcək. Yenidənqurma işləri Balababa Məcidov, Abdulla Şaiq, Mirzəağa Əliyev,



Füzuli küçəsinin davamı və Nəriman Nərimanov küçələrində aparılacaq.

Əvvəllər bu küçələrin ensiz olması, üstəlik bir-çox hissələrdə piyada səkilərinin olmaması avtonəqliyyat vasitələrinin, həmçinin vətəndaşların gediş-gəlişində xeyli çətinliklər yaradırdı. Yenidənqurma işləri çərçivəsində bu problemlər nəzərə alınaraq küçələr həm genişləndiriləcək, həm də geniş piyada səkiləri inşa ediləcək.

Yenidən qurulacaq Balababa Məcidov küçəsinin uzunluğu 440 metrdir. Küçənin əvvəlki eni 7-8 metr olub. Hazırda layihə çərçivəsində küçə genişləndirilərək 15 metrə çatdırılacaq. Layihəyə uyğun olaraq Balababa Məcidov küçəsində 3 hərəkət zolaqlı olmaqla yolun hərəkət hissəsinin eni 12 metr təşkil edəcək. Piyadaların rahat və təhlükəsiz hərəkəti üçün hər iki istiqamət üzrə 1,5 metr enində piyada səkiləri inşa ediləcək.

Tikinti işlərinin aparılacağı Abdulla Şaiq küçəsinin uzunluğu isə 1825 metr təşkil edir. Əvvəllər küçənin eni 5-6 metr olub. Hazırda isə yolun hərəkət hissəsinin eni 7–15 metr arası dəyişməklə və hər iki istiqamət üzrə piyada səkilərinin eni 2 metr olmaqla küçə 19 metrə qədər genişləndiriləcək. Küçənin 2-4 hərəkət zolaqlı olması nəzərdə tutulur.

Akademik Milli Dram Teatrının hər iki tərəfində yerləşən Mirzəağa Əliyev küçəsi və Füzuli küçəsinin davamının uzunluqları müvafiq olaraq 750 və 800 metrdir. Hər iki küçənin əvvəlki hərəkət hissəsinin eni 4-5 metr təşkil edirdi. Bu küçələrdə yenidənqurma işləri çərçivəsində yol yatağı genişləndirilərək 19 metrə çatdırılacaq. Bura 15 metr enində hərəkət hissəsi və hər bir tərəfdə olmaq şərti ilə 2 metr enində piyada səkiləri daxildir. Küçələrin hər biri 4 hərəkət zolaqlı olacaq.

Aparılacaq yenidənqurma işləri çərçivəsində Nəriman Nərimanov küçəsinin 2165 metr uzunluğunda olan hissəsində də tam müasir yol infrastrukturunun yaradılması nəzərdə tutulur. Küçənin hərəkət hissəsinin hazırkı eni 7 metr təşkil edir. Layihəyə əsasən yolun 2–5 hərəkət zolaqlı olmaqla hərəkət hissəsinin eni 7–17,5 metrədək genişləndirilməsi nəzərdə tutulur. Hər iki tərəfində 2–3 metr enində səkilər də nəzərə alınmaqla yolun ümumi eni 11 – 23,5 metr olması planlaşdırılır. Yenidən qurulacaq küçələrdə mühəndis-kommunikasiyaları (su, məişət və yağış suları üçün kanalizasiya, işıq, qaz, rabitə) xətlərinin dəyişdirilərək müasir tələblər səviyyəsində qurulması nəzərdə tutulur.

Layihə çərçivəsində 3 laydan ibarət 25 santimetr qalınlığında asfalt-beton örtüyünün tikilməsi üçün 46 min ton asfalt-beton qarışığı, 34,5 min kubmetr optimal qırmadaş qarışığı, 13 min metrədək səki daşları və 24,4 min kvadratmetr səki hissəsində isə bəzək daşları istifadə ediləcək. Yenidən qurulacaq küçələrdə yeni işıqlandırma sistemləri qurulacaq, 220 ədəd işıq dirəyi istifadə edilməsi nəzərdə tutulur.

Bundan başqa, ictimai nəqliyyat üçün 14 ünvanda "cib"liyin tikilməsi və müasir avtobus dayanacaqların qurulması, yol nişanlarının və məlumat verici lövhələrin quraşdırılması, habelə yolcizgi, yolgöstərici xətlərinin çəkilməsi işləri də planlaşdırılır.

## Keçən ay Ceyhan limanından 2,8 milyon ton Azərbaycan nefti dünya bazarına çıxarılıb



***Cari ilin iyul ayı ərzində 2,8 milyon ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarına çıxarılıb.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, bu həcmin 1,9 milyon tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil edib. Bu ilin yanvar-iyul aylarında Ceyhan limanından ixrac olunan neftin həcmi 17,5 milyon ton təşkil edib.

Ümumiyyətlə, Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri (BTC) istismara verilən gündən bu il avqust ayının 1-dək Ceyhan limanından 308,7 milyon ton Azərbaycan nefti dünya bazarlarına yola salınıb.

## SOCAR iyulda Ceyhan limanından 1,5 milyon ton xam neft ixrac edib



***SOCAR iyul ayında Novorossiysk limanından 79 min 992 ton, Supsa limanından 274 min 676 ton, Ceyhan limanından 1 milyon 569 min 86 ton xam neft ixrac edib.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, yanvar-iyul aylarında şirkət tərəfindən Novorossiysk limanından 559 min 65 ton, Supsa limanından 1 milyon 491 min 744 ton, Ceyhan limanından 10 milyon 105 min 879 ton, Kulevi terminalından isə 14 min 946 ton xam neft ixrac olunub. SOCAR tərəfindən ixrac olunan xam neftin göstəriciləri həm Azərbaycan dövlətinə, həm də şirkətin özünə məxsus xam neft həcmlərini əks etdirir.

## İlin əvvəlindən indiyədək dünyada 4 mindən çox miqrant və qaçqın həlak olub



***2016-ci ilin əvvəlindən dünyada 4 mindən çox miqrant və qaçqın həlak olub. Onlardan 3 min 100-dən çoxu Aralıq dənizi vasitəsilə Avropa ölkələrinə keçmək istəyərkən boğularaq ölüb.***

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) rəsmi nümayəndəsi Djoel Millman bildirib ki, təşkilatın ilin əvvəlindən həyata keçirilən layihəsi çərçivəsində 4017 ölüm halı qeydə alınıb. Bu göstərici 2015-ci illə müqayisədə 26 faiz çoxdur.

BMqT-nin məlumatına görə, İtaliya sahillərində iyunun 29-dan avqustun 1-dək 7923-ə yaxın insan xilas edilib. Ümumilikdə ilin əvvəlindən Aralıq dənizi vasitəsilə Avropa ölkələrinə 257 min 186 miqrant və qaçqın gəlib.

## 5 gündə Aralıq dənizində 6500 qaçqın xilas edilib



***İtaliyanın sahil təhlükəsizlik qrupları iyulun sonu, avqustun əvvəllərində - 5 gündə Aralıq dənizində 6500 qaçqını xilas ediblər.***

trt.net.tr xəbər verir ki, Balkan və Ege marşrutunun bağlanması nəticəsində miqrantlar yenidən Liviya-İtaliya marşrutuna istiqamət alıb. İtaliya gəmiləri həftə sonunda Liviyadan yola çıxan qayıqlarda 1100 nəfərin köməyinə çatıb.

Ölkəyə yerləşənlərin sayı 90 mini ötüb. Hazırda isə Liviyada Avropaya keçmək üçün növbə gözləyən köçkünlərin sayı təxminən 1 milyondur.

2016-cı ilin ilk rübündə yarım milyondan çox qaçqın Avropaya gəlib. Aralıq dənizində itkin düşənlərin sayı isə 3 mindir. İyul ayında Liviya sahillərində 120-dən çox qaçqının cəsədi tapılıb.

İtaliya hökuməti Beynəlxalq Miqrasiya Təşkilatı ilə birgə miqrantların Avropaya axınının qarşısının alınması üçün kampaniyaya başlayıb. Kampaniya çərçivəsində onların diqqətinə yolda və daha sonra qarşılaşacaqları təhlükələr çatdırılır. Maarifləndirici videolar internetlə yanaşı, Afrika ölkələrinin televiziyalarında da yayımlanır.

## Yunanıstanın ən böyük limanından qaçqınlar köçürülüb



Yunanıstanın ən böyük Pireyin limanı ərazisində antisanitariya şəraitində yaşayan qaçqınlar digər məntəqələrə köçürülüb. Yunanıstan hökuməti bir neçə ay ərzində qaçqınları digər məntəqələrə köçürmək istəməsinə baxmayaraq, buna nail ola bilmirdi. Limanda 6 minə qədər müxtəlif millətli qaçqınlar yaşayırdı və onların aralarında tez-tez münaqişələr baş verirdi. Liman demək olar ki, tam boşaldılıb.

Yunanıstanda ümumiyyətlə 57 min qaçqın qeydiyyatdan keçib. Avropa İttifaqının "Frontex" agentliyinin məlumatına əsasən, keçən il Aİ ölkələrinə 1,8 milyon qaçqın üz tutub.

*İqbal Hacıyev*

## BAKI-TBİLİSİ-QARS YENİ DƏMİR YOLUNUN GÜRCÜSTAN HİSSƏSİNDƏ TİKİNTİ İŞLƏRİ DAVAM EDİR

***Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısının Gürcüstan hissəsində tikinti işləri davam edir.***





"Azərbaycan Dəmir Yolları"nın mətbuat xidmətindən bildirilib ki, Gürcüstan hissəsində işlər dörd mərhələdə (Marabda - Tetriskaro - 29,2 kilometr, Tetritskaro-Salka - 49,7 kilometr, Salka-Axalkalaki - 74,1 kilometr, Axalkalaki - Kartsaxi - 26,3 kilometr) həyata keçirilir.

Birinci mərhələdə uzunluğu 29,2 kilometr olan Marabda-Tetriskaro sahəsində birinci (Tetriskaro stansiyası daxil olmaqla) yolun torpaq yatağında, üst quruluşu elementlərində, süni qurğularda, elektrik təchizatı, rabitə və İMB qurğularında, mülki və inzibati binalarda reabilitasiya, rekonstruksiya və tikinti işləri əsasən başa çatdırılıb. Stansiyalarda qaz, su, istilik və çirkab suların axıdılması xətləri çəkilib və istismara hazırdır. Sahədə qatarların elektrovozla hərəkəti təmin edilib.

İkinci mərhələdə uzunluğu 49,7 kilometr olan Tetriskaro-Salka sahəsində (Salka stansiyası daxil olmaqla) reabilitasiya-rekonstruksiya, tikinti işləri əsasən aparılıb. Sahəyə lifli optik rabitə və işarəvermə kabelləri qoyularaq, üstü örtülüb. Ərazidə rabitə, işarəvermə, mərkəzləşmə qurğularında sazlama işləri aparılır. Stansiyaların vağzal binalarında, mülki və yardımçı binalarda, 111 süni qurğuda işlər əsasən başa çatdırılıb. Nadarbazevi və Bedeni dartı yarımstansiyalarında işlər başa çatdırılıb, elektrik kontakt şəbəkəsində və VL-10 kilovat AB və PG elektrik ötürücü xəttində dəyişdiriləcək 1924 yeni dəmir-beton dirək dəyişdirilib, kontakt şəbəkəsində reabilitasiya, rekonstruksiya və tikinti işləri yekunlaşıb.

Üçüncü mərhələdə uzunluğu 74,1 kilometr olan Salka-Axalkalaki sahəsində 179 (4 qar yığımı əleyhinə qalareya, 11 körpü və yol keçidi, 8 daş qırıntılarının axması əleyhinə divar, 25 qar yığını əleyhinə divar, 131 müxtəlif su ötürücü boru) süni qurğuda 25 qar yığımı əleyhinə divarda işlər əsasən başa çatdırılıb. Sahədə yolun üst quruluşu elementləri tam dəyişdirilib. Trialeti, Pokani və Ninotsminda dartı yarımstansiyalarına yeni avadanlıq və qurğular gətirilərək, onların montajı yekunlaşıb, kontakt şəbəkəsində (1990 dirək basdırılaraq, naqilin asılması), VL-10 kilovat AB və PG elektrik ötürücü xəttinin reabilitasiya, rekonstruksiya və tikinti işləri davam etdirilir. Trialeti, Taparavani, Pokani və Ninotsminda stansiyasiyalarında vağzal binalarının rekonstruksiyasında işlər əsasən başa çatdırılıb.

Hazırda sahədə lifli optik rabitə və işarəvermə kabelləri qoyularaq, örtülmüş, rabitə, işarəvermə, bloklama və mərkəzləşmə qurğuları gətirilərək, onların yerləşdirilməsi və montajı başa çatıb. Marabda-Axalkalaki sahəsində sınaq yük qatarının hərəkəti təmin edilib.

Axalkalaki stansiyasında vağzal binasının, çeşidləmə parkının, süni qurğuların tikintisində işlər davam etdirilir. Stansiyada təkər cütlərinin dəyişdirilməsi məntəqəsində 1520 millimetr və 1435 millimetr izli yollar qoyulub. Axalkalaki stansiyasını Axalkalaki-Türkiyə sərhəddi (Kartsaxi) ərazisindəki dəmir yolu ilə birləşdirən, Qırxbulaq çayı üzərindəki 6 dayaqlı 153 metrlik körpünün tikintisində işlər başa çatdırılıb, Bu mərhələdə əsas işlərdən biri də Salka-Axalkalaki sahəsində müxtəlif uzunluqda 4 ədəd tunel-qalereyanın (yerüstü tunel) tikintisidir (1165, 600, 500 və 400 metr uzunluğunda). Bunların tikintisinin əsas səbəbi qışda bu yerlərin qarla örtülməsidir. Tunel-qalereyalar qışda hərəkətin ahəngdarlığının pozulmasının qarşısını müəyyən qədər alacaq. Bundan əvvəl ikinci mərhələdə, 2 ədəd tunel-qalereya avtomobil keçidi üçün istismara verilib.

Dördüncü mərhələdə ümumi uzunluğu 26,3 kilometr (Gürüstan ərazisində tikiləcək tunel də daxil olmaqla) olan Axalkalaki (stansiya istisna olmaqla) - Türkiyə sərhəddi (Kartsaxi) sahəsində (Kartsaxi stansiyası da daxil olmaqla) dəmir yolun torpaq yatağında işlər başa çatdırılıb. 51 süni qurğunun tikintisi əsasən başa çatdırılıb, layihə-smeta sənədlərində nəzərdə tutulmamış 3 süni qurğuda işlər davam etdirilir. Sahənin 26,3 kilometrnə, Kartsaxi stansiyasının 1 baş və 6 yan yolunda yolun üst quruluşu elementləri (rels, şpal) qoyulub, relslərin qaynaqlanması və yola çınqıl tökülməsi başa çatıb, ərazidə ekaloji tarazlığı saxlamaq üçün 50 mindən artıq ağac əkilib. Sərhəd stansiyası olan Kartsaxidə vağzal, mərkəzləşdirilmiş post və yardımçı binaların tikintisində tamamlama, digər mülki bina və tikililərdə işlər yekunlaşıb.

Sərhəddə tikilən 4450 metr uzunluğunda körpünün Gürcüstan ərazisinə düşən 2070 metrində (240 metr uzunluqda portalla birlikdə) 1830 metr uzunluğundakı sahədə üst keçid işləri tamamlanıb, 1780 metr uzunluğunda sahədə yolun alt yatağı qazılmış, 53 metrdə qazma işləri davam etdirilir. Eyni zamanda, tunelin betonlanması işləri aparılır. Betonlama işlərinin yaxın aylarda başa çatdırılması nəzərdə tutulur. Axalkalaki-Kartsaxi sahəsində işçi sınaq qatarının hərəkəti təmin edilib.

Reabilitasiya, rekonstruksiya və tikinti işlərinin aparıldığı Marabda-Türkiyə sərhəddi (Kartsaxi) ərazisi relyefinə və iqliminə görə mürəkkəbdir. Dəmir yolu xəttinin mailliyi 35 faizdir. Sahədəki ilk stansiya- Marabda dəniz səviyyəsindən 750 metr, 100-cü kilometrdəki Taparavani stansiyası dəniz səviyyəsindən 2250 metr, sonuncu stansiya - Kartsaxi dəniz səviyyəsindən 1850 metr hündürlükdə yerləşir.

## TAP qaz boru kəməri üçün ilk kürə klapanlar Yunanıstan və Albaniyaya gətirilib

***Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəməri üçün ilk böyük diametrli kürə klapanlar Yunanıstan və Albaniyaya çatdırılıb.***




Bu barədə TAP-ın saytında məlumat verilir. Hər klapanın çəkisi təxminən 20 tondur. TAP üçün 48 və 36 diametrlik 55 klapan quraşdırılacaq. Klapanlar Almaniyanın cənub-qərbindəki Kehl şəhərindən TAP-ın Yunanıstan və Albaniyadakı əsas saxlama ərazilərinə gətirilib. Burada onlar qrafikə uyğun quraşdırılanadək saxlanılacaq.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin (Southern Gas Corridor - SGC) tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 871 kilometr (Yunanıstan – 547 kilometr, Albaniya – 211 kilometr, Adriatik dənizi – 105 kilometr, İtaliya – 8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə - 36 düym). Bu il mayın 17-də Yunanıstanın Saloniki şəhərində TAP-ın təməlqoyma mərasimi keçirilib. Mayın sonlarına kimi layihə üzrə iş həcminin 19,5 faizi yerinə yetirilib və ümumilikdə 877 milyon avro həcmində sərmayə qoyulub. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir. TAP üzrə tələb olunan kapital xərcləri 5 milyard dollardır. Boru kəmərinin 2020-ci ildə istismara verilməsi nəzərdə tutulur.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

## "FİNANCİAL TİMES" YENİ İPƏK YOLU LAYİHƏSİNDƏ AZƏRBAYCANIN ROLU HAQQINDA REPORTAJ YAYIMLAYIB

***Böyük Britaniyanın "Financial Times" qəzeti "Yeni İpək Yolu" layihəsinin həyata keçirilməsində Azərbaycanın mühüm rolu haqqında reportaj yayımlayıb.***

"Yeni İpək Yolunu keçərək" adlı reportajda müxbir Cek Ferçi layihənin üstünlükləri barədə məlumat verib. Gəmi ilə Qazaxıstandan Azərbaycana səyahət edən müəllif bildirib ki, bu gün Çin Şərqi Asiyadan Yaxın Şərq və Avropayadək uzanan qədim İpək Yolunu bərpa etməyə çalışır. Minilliklər böyük İpək Yolu ilə ipək parçalar, ədviyyatlar, xalçalar alan Avropaya qiymətli iplərlə dolu karvanlar yollanıb. Qəzetin müxbiri bu gün həmin karvanların nəhəng konteyner qatarları ilə əvəz edildiyini söyləyir. Cek Ferçi yeni İpək Yolunun Çindən Avropa bazarına ən qısa yol olduğunu vurğulayır.

"Financial Times"ın müxbiri ilə söhbətində "Aktau Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin prezidenti Mixail Yalpaçov Çindən yola düşərək dəmir yolu vasitəsilə Qazaxıstandan keçən konteyner qatarının Aktaudan Bakıya cəmi beş günə çatacağını bildirir.

Müəllif qeyd edir ki, Azərbaycan yeni İpək Yolunun yaradılması ideyasını fəal şəkildə dəstəkləyir və yük daşımalarına tariflərin azaldılması təşəbbüsü ilə çıxış edib. Bu isə öz növbəsində marşrut üzrə yüklərin nəqlini əhəmiyyətli dərəcədə yüngülləşdirəcək.

Azərbaycanın maliyyə naziri Samir Şərifov isə bildirir ki, layihənin reallaşdırılmasına cəlb edilən ölkələrin bütün müvafiq qurumlarının işi yük daşıyıcılarını qane edəcək ədalətli tariflərin müəyyənləşdirilməsindən ibarətdir. Nazir qeyd edir ki, bu gün bütün ölkələr nəqliyyat marşrutlarının şaxələndirilməsində maraqlıdır. Azərbaycan mövcud marşrutlara alternativ təklif edir.

"Financial Times"in müxbiri reportajında diqqətə çatdırır ki, Azərbaycan və Qazaxıstan üçün yeni İpək Yolu iqtisadiyyatın neftdən asılılığını azaltmağa yönələn layihələrdən biridir.

Cek Ferçinin "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadovla söhbətində vurğulanır ki, bu layihənin həyata keçirilməsi region ölkələri arasında əlaqələri dərinləşdirməyə, yeni iş yerlərinin yaradılmasına imkan verəcək, Azərbaycan kimi dünya okeanına çıxışı olmayan ölkələrin inkişafında böyük rol oynayacaq.

Müxbir Aktau və Bakının bu layihə çərçivəsində regionun aparıcı liman şəhərlərinə çevrilə biləcəyini diqqətə çatdırır.

# O illərdə “Dəniz” nədən yazırdı

## (Nöqtəsinə, vergülünə dəymədən)




### Gəmiləri yuksək keyfiyyətlə təmir etməli

Qaspi gəmiciliyinin geriləməsinə bir sıra əsas noqsanlar və maneələr səbəb olmaqdadır. Bunu gəmiciliyin gəmi təmirat zavodları və gəmilərində aparılan iki aylıq yoqlama daha yaqşı muəyyən etmişdir.

Gəmiciliyin bir sıra gəmiləri texnik çəhətçə yararlı deyildir. Buna baqmayaraq, bu gəmilərin yuksək keyfiyyətlə təmir edilməsinə lazımi diqqət verilmir.

Bir sıra gəmilər bir və ikinci dərəçəli neft produqsiyası daşımaq imkanına malik deyildirlər. Bunlarla hətta neft məhsulu daşımaq belə mumkun olmadıqını yoqlama aşkar etmişdir.

Buna baqmayaraq, indiyədək bunların coqu registrin içazəsi olmadan reysə cıqmışlardır. Bunun nətiçəsidir ki, gəmiçilikdə tez-tez avariya hadisələri baş vermiş və bu, gəmiciliyə xeyli zərər deyməsinə səbəb olmuşdur.

SSRİ XQŞ-nın 1936-çı il 29 iyul tarixli qərarı dəxi yerinə yetirilmədiyindən, gəmicilik qarşısında qoyulan vəzifələr tələb edilən qədər həyata kecirilməmişdir.

Neft produqsiyası daşımaq planının yerinə yetirilməsinin böyuk siyasi və təsərrufat əhəmiyyətə malik olduqunu lazımınça qiymətləndirməyən bir sıra rəhbər işçilər olmuşdur.

Hevzə istismar şöbəsi və gəmi təmirat zavodları, gəmicilik mufəttişliyi SSRİ registri və SSRİ Əmək və Muhafizə idarəsinin göstərişlərini yerinə yetirmirlər.

Gəmilərdə sosializm əmlakının muhafizəsi qənaətbəxş halda deyildir. Yanqın və bədbaxt hadisələrdən ekipaj və gəmiləri qorumaq ucun az iş görulmuşdur. Gəmilərin qultur hala gətirilməsinə lazımi diqqət verilmir.

Misal ucun “Berlin” adına tankeri göturəlim! Bu tanker bir ildir ki, Qaspi dənizində istismar edilir. Tankerin hazırki vəziyyəti onun bir il deyil, uzun illərdən bəri istismar edildiyini göstərir.

Daha doqrusu tanker bir ildə bərbad vəziyyətə salınmışdır.

“VQP (b)”, “Qomintern” tankerlərinin vəziyyəti dəxi bundan yaqşı deyildir.

Bu gəmilərin qorpusu köhnəlmişdir.

Xalq su nəqliyyat qomissarı muavini Rozental yoldaşın 1936-nçı il 28 aprelində vermiş olduqu göstərişlər duzgun yerinə yetirilməmişdir. Onun göstərişi ilə yeni il yanvarınadək 72 gəmidən 60-i eleqtrik vəsaiti ilə təmin edilməli ikən, bugunədək ançaq 3 gəmidə bu iş görulmuşdur. Gəmicilik idarəsi tərəfindən zavod və gəmilərə verilən göstərişlərin dəxi yerinə yetirilmədiyi qeyd edilməlidir.

Gəmi təmiri ucun təxsis edilən puldan duzgun xərc edilməməsi uzundən təmir işlərində pozqunluq əmələ gəlmişdir. Qış təmirinə aparılan hazırlıq qənaətbəxş olmamışdır.

Ayrı-ayrı zavodlarda gəmilərin istismar muddətinin uzadılması hallarına təsaduf edilmişdir ki, bu da neft məhsulu daşınması işinə pis təsir etmişdir. Yaqşı işləməyə geniş şərait vardır. Gəmilərin texnik çəhətçə yararlı olmadıqı bir bahanə ola bilməz.

Noqsanları aradan qaldırmaq, yeni ildə zərərsiz, dotasiyasız işləməklə, SSRİ XQŞ və xalq qomissarı Paxomov yoldaşın göstərişlərini bolşevikçəsinə yerinə yetirmək – Qaspi dənizcilərinin şərəf işi olmalıdır.

*“Qaspi bolşeviki” qəzeti, № 2 (871), 4 yanvar 1937-ci il*

### Dənizdə qasırğa

Dekabrın 30-da Qaspi dənizində şiddətli şimal-şərq küləkləri əsmişdir. Ayın 31-də külək daha da şiddətlənmiş, 11-12 bala çatmışdı.

Bu zaman, Maxaç-Qala limanından çıxan “Profintern”, “Raboçi” və “Asiya” gəmiləri qasırğaya düşmüşdü.

Saat 20-30 dəqiqədə qasırğanın şiddəti ilə “Profintern” teploxodu avariyaya uğrayaraq, Maxaç-Qalaya qayıtmışdır.

“Raboçi” və “Asiya” gəmiləri dəxi qasırğaya tutularaq, birinci mostiki sınmış, qapitanın qayutunun rubkası əzilmişdir. Gəmi yükünü boşaltdıqdan sonra təmirə dayanacaqdır.

*“Qaspi bolşeviki” qəzeti, 6 yanvar 1937-ci il, № 3*

### 63 yaşlı gəmi ilə 7 il avariyasız

Quru yük və sərnişin daşıyan Yan Rudzutaq adına gəminin kapitanı Ağa Hüseyn Sadıqov yoldaşı hamı tanıyır. O, 1894-cü ildən su nəqliyyatında çalışır. 1930-cu ildən Yan Rudzutaq adına gəminin qapitanıdır. Qaspi dənizinin bütün sirlərini öyrənmiş Ağa Hüseyn 7 ildən artıqdır ki, çalışdığı gəmidə bir dəfə də olsa avariyaya yol verməmişdir. Hazırda Yan Rudzutaq adına gəninin 63 yaşı vardır.

Ağa Hüseynə 1935-ci ildə 13500 ton yük daşımaq tapşırığı verilir. Gəmi qomandası, başda təcrübəli kapitanları Ağa Hüseyn olmaqla illik tapşırığı 18 faiz artıqlamasilə yerinə yetirirlər.

1935-ci ildə avariyasız və prostoysuz üzən bu gəmi Qaspi gəmiçiliyi idarəsi tərəfindən 3000 manat mükafat alır.

Bu mükafat gəminin ən yaxşı staxanovçu, zərbəçi komanda üzvlərinə verilir.

1935-ci il planının artıqlamasilə yerinə yetirilməsilə əlaqədar olaraq, gəmidə qomandanın toplanışı keçirilir. Bu toplanışda hamı bir səslə 1936-cı ildə dəxi avariyasız üzməyi, partiya və hökumət tərəfindən verilmiş yük və sərnişin daşıma planlarını vaxtından əvvəl, həm də 20 faiz artıq yerinə yetirməyi öhdələrinə alırlar. Həmin gündən başlayaraq qomanda öz işini staxanov hərəkatını genişləndirmək əsasında qurur. Bunun nəticəsidir ki, qomanda 36-cı staxanov ili naviqasiyası planını vaxtında yerinə yetirməyə müvəffəq olur.

*“Qaspi bolşeviki” qəzeti, 6 yanvar 1937-ci il, № 3*

### Qoplinqoya vəzifəsini anlatmalı

Siqnalci Laşinqov yoldaşın qultur işlər haqqında şikayət etməyə haqqı vardır. “Qaspi bolşeviki” qəzeti redaqsiyası briqadası 10 gun Qrasnovodsq portunda qalmışdır. Bu muddət ərzində qlubu acıq görmək mumkun olmamışdır. Qlub mudiri Qoplinqo bu sahədə məsuliyyət hiss etmir. O, butun işləri başlı-başına buraqmışdır.

Portun həmkarlar təşkilatı dəxi bu sahəyə az fikir verir. Yataqxanada yaşayan bir sıra işcilərin dediyinə görə qlubun bir coq vəsaiti oqurlanmışdır. Bu iş dəxi bugunədək əhəmiyyətsiz buraqılmışdır.

16,17,11,8 nömrəli və sairə otaqlarda yaşayan yukculərə qultur xidmət işi coq da yaqşı qurulmamışdır. Bu otaqlarda yaşayan işcilər və elə də onların ailələrinə qəzet oqumaq, muxtəlif muhazərələr kicirmək kibi işlərdən əsər yoqdur.

16-nçı otaqda 60 nəfərədək işci yaşayır. Halbu ki, başqa otaqlarda vəziyyət belə deyildir. Böyuk otaqlarda az, kiciklərdə isə coq adam yerləşdirilmişdir.

17-nçi otaqda 41 nəfər yaşayır. Port işçilərindən Əzizov yoldaş demişdir:

4 ildən artıqdır ki, mən 6-nçı qorpusda yaşayıram, bizə qultur xidmət edilmir.

Kecirilən qampaniyalardan ailə uzvlərimiz xəbər tutmur. Evdaq qadınlar arasında kutləvi işlər olduqça pis qurulmuşdur. Dənizcilər qlubu bizi butunluklə yaddan cıqarmışdır. Bizə kino və teatro tamaşaları vaqtında verilmir. İşimizi qurtardıqdan sonra ançaq qorpusda oturub, boş söhbətlərlə vaqtımızı keciririk.

*“Qaspi bolşeviki” qəzeti, № 24 (893), 14 fevral 1937-ci il*

### Qapitan gəmini idarə etməyi baçarmır

Qlara Tsetkin adına gəmi qomandası sistematik olaraq planını ödəyə bilmir. Qapitan Niberidzenin təqsiri uzundən baş verən prostoylar reyslik tapşırıqların yerinə yetirilməsini pozur.

Gəmi yanvarın 24-ndə Bakıdan Maxac-Qalaya yola duşur. Yolda coq da böyuk olmayan buz parcaları görünməyə başlayır. Qapitan bunu gördukə dərhal geri qayıtmaq istəmiş, lakin qomandanın təkidi ilə yoluna davam etmişdir. Gəmi Maxac-Qalayadək yaqşı gəlib cıqmışdır. Lakin qapitan buxtaya girmək təklifindən imtina etmişdir.

Bəzən elə olur ki, qapitan qursu duz göturmədiyindən gəmi yoluna azır. Yanvarın 20-ndə Maxac-Qala əvəzinə köhnə Cicen adası yanına gəlib cıqmışdır.

*“Qaspi bolşeviki” qəzeti, № 32 (900), 28 fevral 1937-ci il*

### Boş sözdən əməli işə kecməli

İstər gəmi və barzların duzkun və vaqtında hərəkət etmələrində, hərəkət qrafiqasının pozulmamasında, istərsə yuk vurma-boşaltma işlərinin səmərələşdirilməsində dispetcer apparatı böyuk rol oynayır.

Bakı portu dispetcerliyi isə bu rolu layiqincə duşunmədiyindən öz işini hələ tamamilə yenidən qurmamışdır.

Dispetcerliyin təqsiri uzundən briqadaların saatlarla prostoyuna yol verilir. Martın 5-də Əli Mehdiyev yoldaşın 22 nəfərlik briqadası 20-nçi Körpudə dayanan Qarl Marqs adına gəmiyə işləmək ucun göndərilir. Bu briqada 50 ton yuku vaqtında gəmiyə vurur. Sonra işsiz qaldıqı ucun priqazşiq Paşenə muraçəət edərək iş istəyir. Paşen, briqadirə: “20-nçi körpunun sol tərəfində “Mosqva” gəmisi dayanmışdır. Onun yukunu cıqarmaq lazımdır” deyir.

Briqada “Mosqva” gəmisinə gedir və onun palubasındakı yuku tamamilə cıqarır. Sonra həmin gəminin anbarından yuk cıqarmaq lazım gəlir. Burada traqtor hissələri və sairə var idi.

Qeyd etmək lazımdır ki, gəmiyə Qrasnavodsq portunda yuklərin duzgun vurulmaması uzundən briqada burada coq cətinlik cəkir. Burada coq cətinliklə işlədikdən sonra briqadir Əli Mehdiyev, yenə priqazşiq Paşenin yanına gələrək ondan iş istəyir.

O, bu dəfə “dayanın, bu saat dispetcerdən barj alım. Bizə “Sabuncı” barzı veriləçək və siz ona yuk vuraçaqsınız” deyir. Briqada 45 dəqiqə gözləyir. Bir xəbər cıqmır. Briqadir, Paşenin yanına gələrək, briqadanın prostoy etdiyini ona söyləyir. Paşen “yaqşı siz 17-nçi körpuyə gedin, orada dayanan Demyan Bedni adına gəmiyə yuk vurun” deyə briqadanı başdan edir. Briqada burada bir qədər işlədikdən sonra dispetcer “Sabuncu” barjını 20-nçi körpuyə göndərir.

Ucastoq işçiləri, dispetcer apparatı, priqazşiqlər briqadalara yaqşı iş şəraiti yaratmaq əvəzinə, əksinə onlara boş vədlər verirlər ki, bu da yuk vurma və boşaltma işinə olduqca pis təsir edir.

*“Qaspi bolşeviki” qəzeti, № 43 (911), 20 mart 1937-ci il*

### Gəmicilk rəhbərlərinin iş praqtiqasındakı yaramazlıqlar haqqında

Qaspi gəmiciliyi 1936-nçı ildə olduqca pis işlədiyindən partiya və hukumət tapşırıqlarını yerinə yetirməmişdir.

1937-nçi ilin birinçi qvartalında görulən işlər dəxi qənaətbəxş hesab edilə bilməz. Daşınma planı kəsirlə ödənilmişdir. Gəmilərdə böyuk avariyalar baş vermişdir. Prostoya nihayət verilməmişdir. “Sovetsqaya Armeniya” gəmisi avariyaya uqrayaraq, batmışdır. Buna ilk növbədə gəmicilik idarəsi rəhbərləri Menyaylov və Savınix səbəb olmuşlardır.

Gəmicilik idarəsinin plan şöbəsi nacalniqi Vatman maliyyə işlərində böyuk pozqunluqlar törətmişdir. Savınix isə Vatman “maliyyə işlərində təcrubəli adamdır” deyə onu həmişə qanadı altına almış və mudafiə etmişdir. Vatman hətta “maliyyə və iqtisadi məsələlərdən yaqşı ixtisasa malik bir qonsultant” gözundə görulmuş və ona aylıq əmək haqqından ilavə hər ay 500 manat verilmişdir.

Hələ maraqlı burasıdır ki, Vatman 4 ay ezamiyyətdə olduqu halda yenə əmək haqqından ilavə 500 manat almışdır. Halbuki, o ezamiyyətdə ikən kimsəyə qonsultasiya verməmişdir.

Gəmicilik rəhbərləri Vatmanı Astaraxandan gətirmişlər. İşində məsuliyyət hissi daşımayan belə rəhbərlərin baçarıqsızlıqından istifadə edən Vatman “Ali nefttresti ilə əlverişli muqavələnamə” baqladıqı ucun 1500 manat devlət parasını mənimsəmişdir. O, muxtəlif “xidmətlərinə” qarşı da xeyli pul almışdır.

Gəmicilikdə qanunsuz olaraq aylıq əmək haqqı miqdarından artıq mukafat vermək praqtiqası özunə geniş yer tapmışdır. 1936-nçı ilin 9 ayı icərisində götur və aqord iş ucun 400 işçiyə 90 min manat vermişdir.

İqtisadcı – injener Duqelsqi beləliklə 6600 manat almışdır. Zavodda planlaşdırma işi sxemasını tərtib etməkdən ötru muqavələ baqlanılmış və bu iş ucun ona kullu miqdarda para verilmişdir.

Lakin tərtib edilən sxemanın yuksək keyfiyyətli olmadıqı gəmi təmirat zavodlarına yaqşı məlumdur. Buna baqmayaraq, Duqelsqi məsuliyyətə alınmamışdır.

1936-nçı ildə huquq burosu işcilərinə illik hesabat tərtibi və öz şöbələrinin arxivini qaydaya salmaqdan ötru 950 manat verilmişdir.

Menyayevin katibi qommunist Zubovic qanunsuz olaraq para almış və bu paranı haraya xərc etməsi haqqında hesabat verməmişdir.

Menyaylev və Savınixin xəyanətini birdə bununla isbat etmək olar ki, 1936-nçı ildə lıjnaya estafeta kecirmək (!?) ucun 5 min manat, gəmicilik işciləri aşxanasına dotasiya olaraq 104 min 137 manat və dispetcerlərə səhər yeməyi verilməsi ucun 18456 manat buraqılmışdır.

Mexanik – gəmi xidməti nacalniqi muavini əvvəllərdə ziyancılıq işi ustundə məsuliyyətə alınan, sonradan gəmicilik rəhbərləri tərəfindən işə caqrılan Qarışev mukəmməl təminat və qayqı icərisində yaşamışdır. Ona gəmicilik idarəsi qassasından hər ay 820 manat mənzil xərçi, ailəsinə buraqılan nahar ucun isə 3635 manat verilmişdir.

Gəmicilikdə özunə dərin yuva salmış biabırcılıqların olmasına və hələ də davam etməsinə gəmicilik nacalniqi Menyaylov, onun muavini Savinix hamıdan əvvəl partiya və hukumət qarşısında çavabdehdirlər.

*“Qaspi bolşeviki” qəzeti, № 47 (915), 28 mart 1937-ci il*

### Dəniz vaqzalı naviqasiyaya hazır deyil

Az bir muddətdən sonra, quru yuk və sərnişin daşımaq ucun 1937-nçi il bolşevik naviqasiyası acılaçaqdır. Çari ildə quru yuk flotu partiya və hukumətimizin tapşırıqı uzrə 2 million 200 min ton quru yuk 380 min nəfər sərnişin daşıyaçaqdır. Buna görə də butun quvvələri planın vaqtında yerinə yetirilməsi ətrafında səfərbərliyə almaq, ştaxanovçasına işləmək gəmilərin qrafiqa uzrə duzgun yola salınmasına riayət etmək, gəmi və barzların bir dəqiqə belə prostoy etməsinə yol verməmək kibi əsas vəzifə quru yuk flotu staxanovcu və zərbəcilərinin şərəf işidir.

1937-nçi il bolşevik naviqasiyasında Bakı dəniz vaqzalı (nacalnik Antonov, partiya təşkilatcısı Nəcəf İmanov və həmkarlar təşkilatcısı Adamov) işcilərinin öhdəsinə dəxi bir sıra muhum vəzifələr duşur. Hər il olduqu kibi, 1937-nçi ildə də Qrasnovodsqyə, Astraxana və Az. Astaraya və sairə bu kibi portlara Bakı dəniz vaqzalı vasitəsilə yuzlərçə sərnişin gedəçəkdir. Sərnişinlərə qultur xidmət etmək ucun vaqzal numunəvi olmalı ikən, Bakı dəniz vaqzalında hələ də bu işdən əsər yoqdur. Vaqzalda aparılan təmirat işləri qeyri-qənaətbəxş haldadır.

Burada təmir muddəti dəfələrlə pozulmuşdur. Buna isə Bakı portunun emalatxana nacalniqi Xramov yol vermişdir. Bu adam materialların verilməsini gundən-gunə surundurməyə salır. Vaqzal mudriyyətinin verdiyi məlumata görə hazırda təmirat işləri belil (aqrəng) olmamasından yarımçılıq qalmışdır.

Bakı dəniz vaqzalının təmirat işləri bu temp ilə gedərsə, naviqasiya acılışına qədər vaqzal hazır olmayaçaqdır. Bunu da qeyd etməliyik ki, təmirat işləri vaqzal mudiriyyətinin səhlənkarlıqı nətiçəsində bugunədək plansız aparılır. Təmirin son muddəti aprelin 10-na təyin edilmişdir.

Bakı portunun yerli təşkilatları dəniz vaqzalı təmirinin vaqtında başa catdırılması ucun lazımi tədbirlər görməli və vaqzal naviqasiya acılışınadək hazır edilməlidir.

Bakı dəniz vaqzalı rəhbərləri vaqzalın radio studiyasına qıfıl vurmuşlar. Onlar sərnişinlərə belə “qultur” xidmət edirlər.

*“Qaspi bolşeviki” qəzeti, № 53 (921), 5 aprel 1937-ci il*

### “Daqıstanets” gəmisi nə vaqt istismara veriləcək?

“Daqıstanets” gəmisi çari il naviqasiyasının acılışı gunlərində inşaat işlərini tamamilə bitirib, Bakı-Astarxan xətti uzrə hərəkət etməli idi.

Bu il haman gəmi 11.500 ton yuk və 50 min sərnişin daşımalıdır. Gəminin təçili surətdə istismarə verilməsi bir tək Qolomin zavoddan deyil, Qaspi gəmiciliyinin özundən dəxi əhəmiyyətli dərəçədə asılıdır.

Lakin gəmicilik istismar şöbəsi və mexanik-gəmi xidməti nədənsə bu məsələnin ustundən ötub-kecir və gəminin tam vaqtında istismarə verilməsinin qayqısını cəkməyirlər. Bu xidmətin rəhbər işçiləri Qolomin zavoduna buroqratik kaqızlar yazmaqla vəzifələrini bitmiş hesab edirlər ki, bu kaqızlar dəxi hec bir nətiçə vermir.

Gəminin rəhbər heyətinin “Paris Qommunası” adına zavoddan rəngsazların buraya (gəmiyə) göndərilməsi tələbi nətiçəsiz qalmışdır.

Halbuki gəminin birinci yoqlama reysinə buraqılması muddəti (1 aprel) coqdan kecmişdir.

Zaqotmortexsnab (nacalniq Nadırsin) gəminin bir sıra sifarişlərini hələ də yerinə yetirməmişdir. Qolomin zavodundan göndərilən materiallar lazımi iş ucun sərf edilməmişdir.

Qapitan VOLQOV,
Siyasi muavini MURAVYEV

*“Qaspi bolşeviki” qəzeti, № 53 (921), 9 aprel 1937-ci il*

### Flotdan səmərəli istifadə olunmur

Qasparın butun portları uzrə yuk daşınması planını yerinə yetirmək, Qaspi hevzəsi flotundan səmərəli istifadə etməkdən asılıdır. Lakin hazırki istismar vəziyyəti, subhəsiz ki, yuk daşınması planının yerinə yetirilməsini təmin edə bilməz. Misal ucun bir necə faqt göstərəlim.

Həmişə naviqasiya baqlandıqdan sonra Qaspi gəmiciliyi idarəsi Bakıdan Qrasnavodsqiyə, Artyom adasından Maxac-Qalaya bir sıra neft yuku daşımaqa başlayır. Həmin portlardan neft daşımaq ucun nə qədər gəmi lazım olduqunu öyrənmədən, Qaspar planı yerinə yetirəçəyinə inandı və bununla fəxr etdi. Lakin Maxac-Qala, gəmiləri qəbul edə bilmədi. Cunki burada yukləri vurmaq və boşaltmaq işini vaqtında apara bilmədilər. Həmcinin Qaspi gəmiciliyi idarəsi özunun nə qədər gəmi və tankerlərinin Maxac-Qala reysində pirical ucun dayandıqlarını nəzərə almadı.

Naviqasiya baqlandıqı gundən lixterlər Maxac-Qala ilə Qrasnavodsq arasında uzməklə məşqul idilər.

Qaspi gəmiciliyi idarəsi Astraxanda hazırda meşə materialının olmadıqını bəhanə gətirərək, həmin lixterlərin təmiri qayqısına hec də qalmır. Halbuki, bu lixterlərin dördu də təçili təmir tələb edir. İki aydan sonra Astraxanda lazımi meşə materialları və şalbanlar olaçaqdır. Bunlardan Azərbayçan neft sənayesi ucun də daşımaq lazım gələçəkdir.

Qaspi gəmiciliyi idarəsi yuqarıda göstərdiyimiz faqtlardan lazımi nətiçələr cıqarmalı, flotdan səmərəli istifadə etməli, partiya və hukumətimizin Qaspi dənizciləri qarşısında qoyduqu vəzifələrin şərəflə yerinə yetirilməsinə nail olmalıdır.

*“Qaspi bolşeviki” qəzeti, № 54 (922), 11 aprel 1937-ci il*

### Qaspi gəmiciliyi idarəsindəki vəziyyət həyəçan doqurur

Qaspi gəmiciliyi idarəsində qaydasızlıqdır. Hər gun, Qaspi gəmiciliyi idarəsini zibilləyən adamların daşıma planını çinayətkarçasına pozmalarını təsdiq edən yeni faqtlar meydana cıqır.

Qaspi gəmiciliyi idarəsi, mart ayında Astraxana 152000 ton neft produqsiyası daşımalı idi. Lakin bu rəqəmdən 85905 ton daşımışdır. Aprelin 9 gunundə plan uzrə 205812 ton əvəzinə 123441 ton daşınmışdır. Beləliklə martda və aprelin 9 gunundə 150000 tona qədər produqsiya daşınmamışdır. Bu rəqəm gundən-gunə artır.

Neft produqsiyası daşınması planının pozulmasına, hər şeydən əvvəl gəmilərin təmirdən cıqmaması səbəb olur. “VOP (b)”, “Qomintern” və “Qrestyanin” kibi böyuk tankerlər, hər çur muddətdən artıq 40-90 gunə qədər təmirə dayanmışlardır. İndi isə, butun gəmilər işləməli ikən flotun 40 faizi təmir edilir.

Gəmilərdə aparılan işi təmir adlandırmaq cətindir. “Qrestyanin” teploxodu yarım ildir ki, təmir olunur. O, birinçi reysə cıqdıqda isə, magistral borularından biri Nargin adası yanında xarab olmuşdur. Teploxod həmin yerdə bir sutqa prostoy edərək, öz hərəkətini davam etdirir, indi isə məlumat alınmışdır ki, yolda maşınlarından biri dayanmışdır. Başqa gəmilərdə dəxi belə hallar təkrar olunur.

Umumiyyətlə, bu il Qaspi gəmiciliyi idarəsində qaydasızlıq hökum surur. Qaspi gəmiciliyi idarəsi rəhbərləri – Menyaylov Savınix, mexanik-gəmi və istismar xidməti nacalniqləri Milov və Qullarov daşıma planının tamamilə pozulmasının qarşısını almaq ucun hec bir real tədbir görmurlər. Bunlar hamısı söhbətlə məşqul olaraq, təbiətdən kənar nə isə gözləyirlər. Artıq 15 gundən artıqdır ki, bir-birinin ardınça “noqsanları ifşa edən” içlaslar kecirilir. Lakin belə ifşaların həddindən artıq yıqılmasına baqmayaraq, gəmicilik nacalniqi Menyaylovun özunun rəhbərliyi altında bu sarsaqlamalar davam etdirilməkdədir.

Qasparın hər bir şöbəsində gəmiciliyin yabançı unsurlərlə zibillənməsi sözunu eşitmək olar. Bu doqrudur. Lakin xalq qomissarı Paxomov Bakıda olarkən, işin həqiqi vəziyyətini ondan gizlətmək kibi çinayətə yol verən gəmicilik rəhbərləri, bunu etiraf etmək istəmirlər. Yalnız indi məlum olmuşdur ki, “muvəffəqiyyət tələblərinə” uyqun olmayan hər bir şey xalq qomissarından gizlədilmişdir.

Daşınma planının pozulması və iki il muddətində Qaspi gəmiciliyinin 5 gəmisinin məhv olması səbəblərini yoqlamaq ucun lazımi orqanların işə qarışması tələb olunur.

*“Qaspi bolşeviki” qəzeti, № 56 (924), 17 aprel 1937-ci il*

# KÜR VƏ ARAZ ÇAYLARINDA BİOGEN MADDƏLƏRİN MİQDARI NORMANI KEÇİB

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının, həmçinin onların qollarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə iyul ayının üçüncü ongünlüyü üçün növbəti monitorinq keçirib.***



Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Kür çayında su sərfi iyul ayının ikinci ongünlüyünə nisbətən saniyədə 130 kubmetr azalıb. Monitorinqin nəticələrinə əsasən, Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olub. Suyun tərkibindəki spesifik çirkləndiricilərdən fenollar Şıxlı-2 məntəqəsində 3,7, Ağstafaçayda 3,3, Ağstafaçay su anbarında isə 3,2 dəfə yol verilən qatılıq həddini keçib.

Fenolların Araz çayı üzrə Horadizdə 2,9, Birinci Şahsevəndə 2,4, Bəhramtəpədə isə 2,6 dəfə yol verilən qatılıq həddini keçdiyi müəyyən edilib. Mis birləşmələri isə Kür və Araz çayları üzrə bütün məntəqələrdə norma daxilində tərəddüd edib.

Suyun oksigen rejiminin bütün məntəqələrdə sanitar norma daxilində dəyişdiyi qeydə alınıb.



## Qlobal neft tələbatı gündəlik 94 milyon 260 min barrel olacaq

***Bu il qlobal neft tələbatı 2015-ci ilə görə 1 milyon 220 min barrel artaraq gündəlik 94 milyon 260 min barrel olacaq.***

Bu barədə Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) aylıq hesabatında deyilir. Hesabata görə, 2017-ci ildə isə qlobal neft tələbatı 95 milyon 410 min barrelə çatacaq.

Cari ildə OPEC üzrə xam neft tələbatı 2015-ci illə müqayisədə 1 milyon 900 min barrel artaraq gündəlik 31 milyon 900 min barrel təşkil edəcək. 2017-ci ildə isə OPEC-in neft tələbatı bu ilə nisbətən 1 milyon 100 min barrel artaraq 33 milyon barrel olacaq.

## 1917-Cİ İLDƏN FASİLƏSİZ FƏALİYYƏT GÖSTƏRİR

***Gələn il "Şollar-Bakı Su Qurğuları Kompleksi"nin istismara verilməsinin 100 ili tamam olur. Bakı şəhərinin inkişafına müstəsna töhfələr verən bu layihə Azərbaycanın su təsərrüfatı tarixində mühüm hadisə, böyük nailiyyət sayılır.***

"Şollar-Bakı Su Qurğuları Kompleksi"nin 100 illiyinin geniş qeyd olunması ilə əlaqədar "Azərsu" ASC-də təsdiq edilən Tədbirlər Planına əsasən, 2017-ci il martın 16-da "Azərsu" ASC və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə "Şollar - unikal su qurğusu" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçiriləcək. Konfransda "Şollar su kəməri – dayanıqlı və etibarlı su təchizatı sistemi", "Qədim, tarixi su qurğuları", "Müasir su təchizatı sistemləri: inkişaf, innovasiya və nailiyyətlər", "İqlim dəyişikliyi, ətraf mühit və su təhlükəsizliyi" mövzularında sessiyalar təşkil ediləcək. Konfransda elm və təhsil müəssisələrinin tələbə, magistr və aspirantları, alim və mütəxəssisləri iştirak edə bilərlər. Konfransa elmi məqalə təqdim olunması ilə bağlı ətraflı məlumat www.azersu.az saytında yerləşdirilib: (http://azersu.az/143-%C5%9Eollar+100).

Bakı şəhəri və Abşeron yarımadasının içməli su təchizatında müstəsna əhəmiyyət daşıyan Şollar-Bakı su kəməri paytaxtın içməli su təchizatı üçün çəkilmiş ilk magistral su xəttidir. XIX əsrin sonları və XX əsrin əvvəllərində neft sənayesinin inkişafı ilə əlaqədar Bakı şəhərinin sürətlə böyüməsi, əhali artımı Abşeron yarımadasının daha etibarlı və məhsuldar mənbə hesabına su ilə təmin etmək zərurəti yaradıb. Uzun müzakirələrdən sonra su mənbəyi kimi Xaçmaz rayonu Şollar kəndi yaxınlığındakı yeraltı sulardan istifadə olunması qərara alınıb.

İngilis mühəndis Uilyam Lindleyin layihəsi əsasında 1903-cü ildə 187 kilometr uzunluğunda Şollar-Bakı su kəmərinin tikintisinə başlanılıb. Kəmərin tikintisində yaranan fasilələr səbəbindən "Şollar" suyu Bakı əhalisinə 14 il sonra - 1917-ci ildə çatdırılıb. Bu layihənin həyata keçirilməsində məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin böyük dəstəyi olub.

Şollar-Bakı su kəməri artezian üsulu ilə qazılmış 24 quyunun, eləcə də lay və bulaq sularından qidalanır. 1917-ci ildən fasiləsiz fəaliyyət göstərən bu mənbənin məhsuldarlığı demək olar ki, dəyişməyib.

## "Xəzər kuboku – 2016" müsabiqəsində hərbi dənizçilərimiz uğur qazanıblar

***Azərbaycan hərbi dənizçilərinin iştirak etdiyi "Beynəlxalq Ordu Oyunları – 2016" yarışları çərçivəsində keçirilən "Xəzər kuboku – 2016" müsabiqəsi başa çatıb.***



Müdafiə Nazirliyindən bildiriblər ki, birinci mərhələdə poliqona girməklə hava hədəfinin artilleriya atəşi ilə məhv edilməsi zamanı hərbi dənizçilərimiz G-124 gözətçi gəmisindən təyyarədən atılmış yanan bombaya atəş açaraq hədəfi məhv edib. Bu uğurlu atəş 40 bal sistemi ilə qiymətləndirilib və dənizçilərimiz ilk mərhələdə birinci yerə layiq görülüb.

İkinci mərhələdə dəniz hədəfinin artilleriya qurğusundan məhv edilməsi zamanı 4 min 300 metr məsafədən atəş açan dənizçi heyətimiz epizoda görə 20 bal toplayaraq ikinci yeri tutub.

Üçüncü mərhələdə hərəkətdə ikən üzən mina hədəfinin artilleriya atəşi ilə məhv edilməsi planlaşdırılıb. G-124 gəmisi poliqona daxil olmaqla 280 metr məsafədən minanı məhv edərək 40 bal toplayıb və ikinci yeri qazanıb.

Ümumilikdə, poliqonda keçirilən silah atışlarının hər 3 mərhələsinin nəticələrinə görə Azərbaycan hərbi dənizçilərinə məxsus G-124 gözətçi gəmisi ən çox bal toplayaraq birinci yerə layiq görülüb.

Sonra mini futbol üzrə yarışlar keçirilib. G-124 gəmisinin heyəti Rusiyaya məxsus "Uqliç" gəmisinin heyətinə 3:6 hesabı ilə məğlub olmasına baxmayaraq Qazaxıstana məxsus "Oral" gəmisinin heyətinə 7:2 hesabı ilə qalib gəlib və nəticə etibarı ilə ikinci yeri tutub.



Hərbi idman oyunları çərçivəsində dəniz hazırlığı üzrə yarışların son mərhələsinin şərtlərinə əsasən hərbi gəmilər dəniz poliqonunda lövbərə durmalı, çəlləyə bağlanaraq təyin olunmuş kursda dayanmaqla tapşırığı yerinə yetirməli idi. Mərhələnin nəticələrinə görə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin G-124 gəmisi bütün şərtlərə əməl edərək ən yüksək göstərici olan 40 balla birinci yerə çıxıb.

"Xəzər kuboku – 2016" müsabiqəsində ümumi nəticələrin bal hesabına uyğun olaraq komandamız ikinci yeri tutub və dənizçilərin yarışı başa çatıb.

Avqustun 13-də "Beynəlxalq Ordu Oyunları – 2016" yarışlarına yekun vurulacaq və qaliblərin mükafatlandırılma mərasimi keçiriləcək.

## ÇİN GƏMİLƏRİNİN ŞƏRQİ ÇİN DƏNİZİNDƏ YAPONİYANIN ƏRAZİ SULARINA DAXİL OLMASI İLƏ BAĞLI ETİRAZINI BİLDİRİBLƏR

***Yaponiyanın xarici işlər naziri Fumio Kişida son günlər Çin gəmilərinin Şərqi Çin dənizində Yaponiyanın ərazi sularına daxil olması ilə bağlı etirazını bildirib.***

Bununla əlaqədar avqustun 9-da F.Kişida Çinin Yaponiyadakı səfiri Çen Yunhuanı Xarici İşlər Nazirliyinə çağırıb.

Nazir bildirib ki, Yaponiya tərəfinin etirazlarına baxmayaraq, Senkaku adaları ətrafında vəziyyət gərgin olaraq qalır. F. Kişida vurğulayıb ki, Yaponiya Çinin regionda gərginliyi artıran hərəkətlərini sakitliklə qarşılaya bilməz.




Artıq beşinci gündür ki, Yaponiya Çinin hərəkətlərinə etiraz edir.

Çinin məsələ ilə bağlı mövqeyini bildirən səfir qeyd edib ki, bu adalar Çinin ayrılmaz tərkib hissəsidir və buna görə də Çin gəmiləri həmin ərazidə hərəkət edə bilər.

Yaponiyanın xarici işlər naziri ilə görüşdən sonra jurnalistlərə açıqlama verən səfir qeyd edib ki, gələcəkdə vəziyyətin daha da gərginləşməməsi üçün hər iki tərəf müzakirələri sakit şəraitdə davam etdirməlidir.

Qeyd edək ki, Yaponiyanın nəzarəti altında olan Senkaku adalarına Çin və Tayvan da iddialıdır.

***Vüqar Ağayev***



## Uzunömürlülərin sayı artacaq

***Alimlər ətraf mühitin, ekologiyanın çirklənməsinə, qlobal istiləşməyə baxmayaraq uzunömürlülərin sayının artacağı qənaətindədirlər.***

Vista News saytı xəbər verir ki, elm adamlarının fikrincə, 2050-ci ildə insan ömrü orta hesabla rekord həddə - 100 ilə çatacaq. Hesablamalara görə, uzunömürlü əhalisi olan ölkələr siyahısında ilk yeri Çin, ikinci ABŞ, üçüncü yeri isə Yaponiya tutacaq.

Alimlər insan ömrünün uzadılmasına kömək məqsədilə bir sıra məsləhətlər də veriblər. İlk növbədə ev heyvanı saxlamaq və onunla hər gün gəzintiyə çıxmaq məsləhət görülür. Maddələr mübadiləsinin yaxşılaşdırılması, stresin azaldılması, immun sisteminin möhkəmləndirilməsi də əsas şərtlərdən hesab olunur. İmmun sisteminin möhkəmləndirilməsi və qan dövranının yaxşılaşmasında səhər yeməyi, təmiz hava və tənzimlənmiş yuxunun böyük rol oynadığı bildirilir. Ömrü uzatmağın sirlərindən birinin də meyvə-tərəvəzdən istifadə olduğu qeyd edilir.

Bundan əlavə, içki və tütün kimi pis vərdişlərdən imtina olunması məsləhət görülür ki, bunlar yüksək qan təzyiqi, qan laxtalanması, xərçəng, depressiya kimi bir sıra xəstəliklərin riskini artırır.




*Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyi ittifaqa üzv ölkələrin Bakıdakı səfirlikləri ilə birlikdə və Dənizkənarı Bulvar İdarəsinin tərəfdaşlığı ilə "Avropa şəhərciyi - 2016" festivalı keçirəcək.*

## "Avropa şəhərciyi" bütün əhali üçün açıq ictimai məkanda təşkil edilən bir mərasimdir

Aİ-nın Azərbaycandakı nümayəndəliyindən bildirilib ki, tədbir oktyabrın 1-də Dənizkənarı Milli Parkda təşkil olunacaq.

Bu il Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyi Azərbaycan Respublikası ilə mövcud əməkdaşlığın 25 illiyini ittifaqa üzv ölkələrin Bakıdakı səfirlikləri ilə bir neçə tədbir çərçivəsində qeyd edir. Tədbirlərdən biri də 2013-cü ildən etibarən ardıcıl olaraq İçərişəhərdə keçirilən "Avropa şəhərciyi"dir.

"Avropa şəhərciyi" bütün əhali üçün açıq ictimai məkanda təşkil edilən bir mərasimdir. Festivalın keçirilməsində məqsəd Avropa İttifaqına üzv ölkələrə öz mədəniyyət və ənənələrini nümayiş etdirmək üçün imkan yaratmaqdır. Bir gün davam edəcək bu festivala heç kəs laqeyd qala bilməyəcək. Belə ki, "Avropa şəhərciyi - 2016" festivalı çərçivəsində uşaq və böyüklər üçün çoxsaylı müsabiqə və viktorinalar, Avropa ölkələrinə virtual səyahət, milli rəqs və karaoke ifaları, feys-art, şahmat yarışı və s. təşkil olunacaq. Müsabiqə və viktorinaların qaliblərini isə xüsusi hədiyyələr gözləyir. Festivala gələn qonaqlar "Qaspaço" və "Paella" kimi tanınmış Avropa yeməklərinin hazırlanması üzrə kulinariya şousuna tamaşa etməklə yanaşı, pizza xəmirinin virtuoz-aşpaz tərəfindən havada fırladılması şousunu yaxından izləyə biləcəklər. "Avropa şəhərciyi - 2016" festivalının səhnəsində uşaqdan tutmuş böyüyə kimi hamını bir sıra sürprizlər gözləyir. Tədbirdə xüsusi olaraq uşaqlar üçün sehrbazın çıxışı və müxtəlif şoular təşkil olunacaq. Ardınca "Səs Azərbaycan" layihəsinin iştirakçıları öz ifalarını təqdim edəcəklər. Festival Avropadan dəvət olunmuş estrada ulduzunun möhtəşəm konsert proqramı ilə yekunlaşacaq.

Festivalın proqramı ilə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin sosial şəbəkədəki səhifəsindən tanış olmaq olar: https://www.facebook.com/EUDelegationtoAzerbaijan/?fref=ts .

# "Asan imza" sertifikatlarını necə yeniləmək olar?

***"Asan imza" sertifikatlarını yeniləmək çox sadədir.***

Vergilər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazirlik tərəfindən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi məqsədilə 2013-cü ilin iyun ayından etibarən Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) hüquqi və fiziki şəxslərə sertifikat xidmətinin göstərilməsi ilə bağlı fəaliyyətə başlayıb. "Asan imza" sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlıq müddəti bu ilin avqust və növbəti aylarında bitəcək. "Asan imza" sertifikatının yenisini almaq istəyənlər qüvvədə olan "Asan imza" vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra "Asan imza" sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və "ASAN xidmət" mərkəzlərinə yaxınlaşa bilərlər.

Vətəndaşların "Asan imza" ilə əlaqədar əlavə suallar yaranarsa Vergilər Nazirliyinin 195-1 Çağrı mərkəzinə, rəsmi internet saytının "Sual-cavab" bölməsinə (www.taxes.gov.az/www.taxes/faq/sual.html) və www.asxm.gov.az internet ünvanına müraciət etmələri mümkündür.

# DÜNYADA İLK ÜZƏN SUALTI TUNEL





***Avtomobillərin rahat idarə olunması üçün vacib sayılan əlverişli yol infrastrukturunun yaradılması bəzi hallarda mümkün olmur. Bu amil əsasən ərazinin landşaft xüsusiyyətlərindən asılıdır. Norveçdə müvafiq problemin həlli üçün dünyada ilk dəfə üzən sualtı nəqliyyat tunelinin inşası planlaşdırılır.***

"Live science" saytı xəbər verir ki, "Sognefjord" körfəzi ərazisində həyata keçiriləcək layihənin təşəbbüskarları suyun 30 metr dərinliyində yerləşdirilmiş üzən tunellər vasitəsilə avtomobillərin hər iki istiqamətdə uzun məsafələri daha rahat qət etməsinə imkan yaranacağını bildiriblər. 2035-ci ilədək yekunlaşdırılması nəzərdə tutulan layihənin reallaşması üçün 25 milyard ABŞ dolları həcmində vəsait ayrılıb.

Layihə uğurlu nəticə verərsə, Norveçin digər bölgələrində də oxşar tunellərin tikintisi həyata keçirilə bilər. Üzən tunellər vasitəsilə ölkənin cənub-şimal istiqamətində avtomobillərin hərəkət zamanının yarıbayarı qısaldılması mümkündür.

# TELEFONUNUZU GECƏLƏR DOLDURMAYIN

***"The Mirror" mobil telefon istifadəçilərinə maraqlı bir məsləhət verib: Gecələr yatanda telefonunuzu elektrik şəbəkəsinə qoşmayın.***

Telefon batareyalarının enerji ilə doldurulması üçün ən münasib vaxt oyaq olduğunuz vaxtdır.

"The Mirror" yazır ki, əksər adamlar telefon batareyasının doldurulmasını gecə saatlarına saxlayırlar. Bu isə kökündən yanlışdır.

İstehlakçılıq eksperti Dominic Littlevood bildirir ki, batareyaların telefon sahibinin yatdığı saatlarda doldurulması yanğın təhlükəsi yaradır. Ələlxüsus da elektrik şəbəkəsinə qoşulu telefon yatağınızdadırsa.

Ekspert bildirir ki, şəbəkədə olan telefonların qızması yorğan-döşəyə od sala bilər.

Telefonun lazım olduğundan daha uzun müddət şəbəkədə olması onun batareyalarını vaxtından əvvəl sıradan çıxara bilər.

Kompüter məsləhətçiləri isə tövsiyə edirlər ki, telefonun batareyasını heç vaxt "ağzınadək" doldurmayın. Onların fikrincə, telefonun vaxtaşırı 100 faiz doldurulması batareyaların ömrünü qısaldır.



# İlanlar adasının sahillərinə yanaşmağa yalnız dəniz donanmasının gəmilərinə icazə verilir

***Amerikalı bioloqlar Yer üzündə ən təhlükəli adanı müəyyən ediblər. Onların sözlərinə görə, bu, Braziliyanın cənub-şərq sahilləri yaxınlığında yerləşən Keymada-Qrandi və ya İlanlar adasıdır.***



ecoportal.ru saytı xəbər verir ki, ərazisi təxminən 33 kvadratmetr təşkil edən adada ilan əlindən tərpənmək olmur.

Adada müxtəlif növ ilanlar yaşayır. Bunlardan botrops insanlar üçün ən təhlükəlisidir. Onun dişləməsi qurbanının bütün toxumalarının dağılmasına gətirib çıxarır. Hətta bioloqlar belə ilanların öyrənilməsi üçün adaya çıxmağa xüsusi icazə alırlar. İlanlar adasının sahillərinə üzüb yanaşmağa isə yalnız Braziliya dəniz donanmasının gəmilərinə icazə verilir.

# Avtobus-tunel sınaqdan keçirilib



***Çin hökuməti avqustun 3-də Xebey vilayətinin Sinxuandao şəhərində TEB-1 avtobus-tunelin ilk hərəkət sınağını keçirib.***

Çinin mərkəzi televiziyasının məlumatına görə, relslər üzərində hərəkət edən avtobus yerdən iki metr hündürlükdə yerləşir. Uzunluğu 22, eni 7,8, hündürlüyü isə 4,8 metrdir. Avtobusun altından iki cərgədə hündürlüyü iki metrə çatan avtomobillər keçə bilir.

Bu nəqliyyat vasitəsinin salonu 300 nəfər üçün nəzərdə tutulub, onlardan 55-i oturacaqlı yerlərdir. İxtiraçılar avtobusun tıxacda qalma və ya tıxac yaratma qorxusunun olmadığını qeyd edirlər.

Avtobusun daha bir üstünlüyü elektrik enerjisi ilə işləməsidir. Hökumət iri və çoxsakinli şəhərlərdə bu cür avtobuslara ehtiyac olduğunu bildirir.

# NORMAND ADALARI YAXINLIĞINDA BƏNÖVŞƏYİ RƏNGLİ OBYEKT AŞKARLANIB

***Amerikalı alimlər Normand adaları yaxınlığında bənövşəyi rəngli hərəkət edən, şara bənzər obyekt aşkar ediblər.***

"Vista News" saytı xəbər verir ki, elm adamları həmin obyektin canlı olduğunu düşünürlər. Belə ki, obyekt okeanın dibində təhlükələri aradan qaldıraraq son dərəcə ehtiyatla hərəkət edir. Tədqiqatçılar əvvəlcə onun mollyusk, parıltısının isə işığın əksi olduğunu zənn ediblər. Lakin həmin canlıdan alınan analizləri təhlil edən alimlər gözlənilməz nəticə ilə qarşılaşıblar. Məlum olub ki, onun bədənində bir neçə qat epiteli (əzələlərin və bədən boşluqlarının üstünü örtən toxuma) mövcuddur. Bu, obyekti bütün molyyusk növlərindən fərqləndirən xüsusiyyətdir. Bununla yanaşı, mollyuskların qeyri-cinsi çoxala bildikləri halda, bu canlının bu cür çoxalmağa qadir olmadığı bəlli olub.



Alimlər yaxın gələcəkdə bu canlı obyekti okeanın dibindən çıxarıb onu daha dərindən öyrənmək niyyətindədirlər.

# YARIZARAFAT, YARIGERÇƏK

**Çörəyim daşdan çıxandan daş da xeyli bahalaşıb.**

**Bəs xəsis adamlar haqqı nahaqqa niyə verirlər?**

**Qəribədir, adamı olanların çoxu niyə birinci adamlığını itirir?**

**Həqiqətə niyə dəbdən düşmüş paltar kimi baxırlar?**

**Hərə öz arşını ilə ölçdüyü üçün "Arşın mal alan" dəbdən düşmür?**

**Onun-bunun arxasınca daş atanların atdıqları daşa baxanda cılız adam olduqları o saat bilinir.**

**Ağlına dua yazdırmayanların hamısı ağıllı adamlardır?**

**Evin dirəyi qadın olduğu üçün xırda titrəyişdən belə bəzən evlər dağılır?**

**Yaddaşı qısa adamla uzun yol getmək olmaz.**

**İşsizlikdən başqasına torba tikməklə məşğuldur?**

**Ucuz olduğu üçün adamın qoltuğuna qarpız verirlər?**

**Söz var el içində, söz var öz içimdə.**

**Keyfiyyətli mal istəyən də ucundan tutub ucuzluğa gedir?**

**Başı var deyə, hara gəldi soxmalıdır?**

**Zəhər ucuz deyilsə, niyə çox adamın dilinin altında qənd yox, zəhər olur?**

**Yəqin ermənilərin hamısı əvvəllər yalnız at saxlayıb. Yoxsa bütün ermənilərin başına at necə təpə bilərdi?**

**Allah erməniləri yaradandan sonra daha pis heç nə yaratmayıb. Qalan bütün pis işlər ermənilərin işidir.**

**Ölə-ölə gülməkdənsə, gülə-gülə ölmək yaxşıdır.**

**Güc deyəsən biclikdədir axı...**

**Ermənilərin ağı olmur. Qaralarına lənət!**

**"Su ki, girdi qaba, oldu içməli" məgər yalnız bizim sular üçün deyilməyib?**

**Görəsən Bakıda külək əsməsə, külək əsən səmtə yıxılanlar nə işlə məşğul olarlar?**

**Başqa parça tapmadıqları üçün adamın gününü göy əsgiyə bükürlər?**

**Bəziləri hətta burunlarını kəsdirəndən sonra da burunlarından uzağı görə bilmirlər.**

**Ermənilərdən kişilikdən başqa nə desən gözləmək olar.**

**Fikir vermisiniz, əl aşağı olanda, baş da aşağı olur.**

**Ən kinli adam da həqiqətlə barışmalıdır.**

**Allah pulluya insaf vermirsə, barı insaflıya pul versin.**

**Doğru ilə oğruya bir gözlə baxana ikinci göz nəyə lazım?!**

**Bəzilərini gözləri yaxşı gördüyü üçün gözümçıxdıya salırlar?**

**Sırğa taxan "igidlər" çox güman ki, bibilərinə oxşayırlar.**

**Yazıq pişiklər. Gör nə qədər torbada pişik var...**

**Özünü dəqiqəbaşı dağ başına qoyanın şəhərdə nə işi?**

**Ermənilər dərddən başqa nəyimiz varsa, qamarlayırlar.**

**Qara günləri çıxsaq, insan neçə il yaşayır?**

**Nə vaxta qədər qarışqadan ancaq fil düzəldəcəklər? Başqa heyvanların nəyi pisdir ki?**

**Yaxşı adam olmaq üçün yaxşı səbrin olmalıdır.**

**Xarab olduğu üçün çox adamın dişinin dibindən yaxşı heç nə çıxmır?**

**Bəzilərini hörmət etdikləri üçün yerində otuzdurmurlar.**

**Yaxşı ki, nə bağım var, nə bostanım. Yoxsa mən də bəziləri kimi başlayardım "bağ belə, bostan belə".**

**Yaşamaq yanmaqdır o demək deyil ki, hər yerindən duran adama od qoysun.**

**Mərdin qiyməti namərdə işin düşəndə bilinir.**

**Həqiqətdən qorxan daha qorxulu adamdır.**

**Əlli il bu qənaətdə olmuşam ki, səbir yaxşı şeydir. Elə ona görə çox yaxşı şeylərdən heç xəbərim də olmayıb.**

**Heç olmasa hər üç adamdan biri düz danışsaydı, dünya bu günə qalmazdı.**

**Dağılasan belə dünya! "Kişilər"in işi-peşəsi arvadlardan danışmaqdır.**

**Mövzu nə olursa-olsun, adətən hər kəs öz maraq dairəsindən çıxış edir.**

**Sən haqqa gəl, mən hara desən gələrəm.**

**Deyəsən pul adama ağıldan daha tez-tez lazım olur axı...**

**Meşəbəyinin gözündən uzaq. İpimin üstünə o qədər odun yığan var ki...**

**Bəzilərinə elə gəlir ki, haqq yerini tutana kimi, onlar haranı istəsələr, tuta bilərlər.**

**Boğazlarında nə isə qaldığı üçün çox adam boğazdan yuxarı danışır?**

**Görəsən yalan olmasa, çox adam çulunu sudan necə çıxarar?**

**Adamlığına qalsa, çox adama heç aşağı başda da yer olmamalıdır.**

**Nədən yüzə dözən düzə dözmür?**

***Rasif TAHİROV***





# Olimpiya Oyunlarında Azərbaycana ilk medalı cüdoçu Rüstəm Orucov qazandırdı

***Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında Azərbaycan yığma komandası ilk medalını avqustun 8-də qazandı.***

Olimpiadada mübarizəyə 1/16 finaldan başlayan cüdoçumuz bu mərhələdə Qazaxıstan təmsilçisi Didar Hamzanı məğlub etmişdi. R.Orucov səkkizdəbir finalda Jake Bensted (Avstraliya) üzərində ipponla qələbə qazanmışdı. Azərbaycan idmançısı dörddəbir finalda “London-2012” Olimpiya Oyunlarının gümüş mükafatçısı, Macarıstan təmsilçisi Miklos Unqvarini məğlub etmişdi. Yarımfinalda Saqi Muki (İsrail) ilə qarşılaşan R.Orucov görüşü qələbə ilə başa vuraraq finala yüksəlmişdi. Qələbəyə gedən yoldakı sonuncu sınağında yaponiyalı Şohei Onoya uduzan cüdoçumuz XXXI Yay Olimpiya Oyunlarını gümüş medalla başa vurdu.

İyirmi beş yaşlı Rüstəm Orucov bu il Kazanda keçirilən Avropa çempionatının şəxsi yarışlarında birinci yeri tutub. O, həmin çempionatda komanda yarışında bürünc mükafatla kifayətlənməli olub. İdmançımız 2011-ci ildə Dünya Kubokunun bürünc mükafatçısı və Avropa Kubokunda ikinci yerin sahibi olub. Cüdoçumuz həmin il Azərbaycanı Şenzen şəhərində keçirilən beynəlxalq yay universiadasında, 2012-ci ildə isə London Yay Olimpiya Oyunlarında təmsil edib. 2012-ci il Bakıdakı Qran-pridə qızıl, 2014-cü il Türkiyənin Samsun şəhərindəki Qran-pri turnirində gümüş medal qazanan R.Orucov ötən il Tbilisidə keçirilən Qran-pridə birinci yeri tutub. İdmançımız bu il Bakıda keçirilən “Böyük dəbilqə” beynəlxalq turnirində bürünc, Almaniyada təşkil olunan Qran-pri turnirində isə gümüş medal qazanıb.

“Azərbaycana ilk medalı qazandırdığım üçün çox xoşbəxtəm. Mənə dəstək olan hər kəsə təşəkkürümü bildirirəm.”

Bu sözləri XXXI Yay Olimpiya Oyunlarının cüdo yarışlarında Azərbaycana ilk medalı qazandıran Rüstəm Orucov müsahibəsində deyib.

“Azərbaycanın üçrəngli bayrağının Braziliyada dalğalanması həqiqətən qürurverici idi”, - deyə idmançımız qeyd edib.

Yarışa ciddi hazırlaşdığını bildirən R.Orucov finaldakı rəqibinin güclü olduğunu deyib: “Olimpiadaya hazırlaşarkən yaponiyalı idmançının finala çıxacağını güman edirdim. Ona uyğun texnika üzərində işlədik. O da öz üzərində hazırlaşdığı üçün görüşdə üstünlüyə sahib oldu”.

R.Orucov Beynəlxalq Cüdo Federasiyasının reytinq siyahısında ikinci yerdə qərarlaşıb. O, Olimpiya Oyunlarına lisenziyanı Beynəlxalq Cüdo Federasiyasının reytinq cədvəlinə əsasən qazanmışdı.

# BAKI ŞAHMAT OLİMPİADASINDA 6 KOMANDAMIZ MÜBARİZƏ APARACAQ

***Bakı Şahmat Olimpiadasının başlanmasına az vaxt qalır. Mötəbər yarışa hazırlıq işlərini Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı əsasında yaradılan Təşkilat Komitəsi həyata keçirir. Təşkilat Komitəsinin nəzdində fəaliyyət göstərən Bakı Şahmat Olimpiadası Əməliyyat Komitəsi hazırda həm beynəlxalq şahmat qurumları ilə, iştirakçı ölkələrlə əlaqə saxlayır, həm də ölkə daxilində yarışın keçirilməsinə aidiyyəti olan təşkilatlarla birgə çalışır.***




Beynəlxalq Şahmat Federasiyası (FİDE) olimpiadalarda iştirakçı ölkələrin sayının artmasına çalışır. Bakıdakı olimpiadada rekord səviyyədə iştirakçı olacaq. Bundan əvvəl Norveçdə keçirilən Olimpiadada 172 ölkə iştirak edib. Bakıda 180 ölkə təmsil olunacaq. Qeydiyyat davam edir, ona görə də ölkələrin sayının artması mümkündür. FİDE-nin 189 üzvü var. Bakıdakı Olimpiada iştirakçı ölkələrin sayına görə yeni rekorda imza atacaq.

Olimpiadanın açılış və bağlanış mərasimlərinə hazırlıq davam edir. Bağlanış adətən texniki xarakter daşıyır. Açılışda isə təşkilatçı ölkənin tarixi, idmana bağlılığı, olimpiada barədə müəyyən məqamlar nümayiş olunacaq. Hazırda ssenari üzərində iş gedir. Açılış mərasimində 2500-2600 tamaşaçının iştirakı gözlənilir. Burada Azərbaycanın şahmata bağlılığı, ölkəmizin qədim tarixi və digər məqamlar göstəriləcək.

Bakıda keçiriləcək 42-ci Ümumdünya Şahmat Olimpiadasında iştirak edəcək Azərbaycan komandalarının heyəti müəyyənləşib. Mötəbər yarışda Azərbaycanın idman şərəfini 3 kişi və 3 qadın komandası qoruyacaq.

Kişilərdən ibarət birinci komandada Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Rauf Məmmədov, Eltac Səfərli və Arkadi Naydiç yer alıblar. İkinci komandanın tərkibinə isə Vasif Durarbəyli, Namiq Quliyev, Qədir Hüseynov, Nicat Abasov və Ülvi Bacarani daxil ediliblər. Üçüncü komanda isə Nail Bəşirli, Məhəmməd Muradlı, Vüqar Əsədli, Pərviz Qasımov və Abdulla Qədimbəylidən ibarətdir.

Qadın şahmatçılardan ibarət birinci komandanın heyətinə Zeynəb Məmmədyarova, Günay Məmmədzadə, Aydan Höccətova, Gülnar Məmmədova və Nərmin Kazımova cəlb olunub. İkinci komandada Türkan Məmmədyarova, Nərgiz Umudova, Xəyalə Abdulla, Ülviyyə Fətəliyeva və Nərmin Xələfova yer alıblar. Üçüncü komandanın heyətində isə ölkəmizi Nərmin Məmmədova, Xanım Balacayeva, Gövhər Beydullayeva, Ayan Allahverdiyeva və Aynur Kətanova təmsil edəcəklər.

Adətən əsas komandalardan böyük nəticələr gözləyirlər. Kişi şahmatçılardan ibarət yığmamız həmişə dünyada ən güclülər sırasında olub. Norveçdə keçirilən son olimpiadada 2-5-ci yerləri bölüşdürdük. Son 8 ildə komandamız iki dəfə Avropa çempionu olub. Başqa sözlə, kifayət qədər təcrübəli və titullu komandamızdan Bakı Şahmat Olimpiadasında Qələbə gözləməyə haqqımız var.

Qeyd edək ki, Bakı Şahmat Olimpiadasının təntənəli açılış mərasimi sentyabrın 1-də Milli Gimnastika Arenasında təşkil olunacaq. Olimpiadanın oyunları “Baku Crystal Hall”-da keçiriləcək.

*Tahir DADAŞOV*




# ƏN YAXŞI FUTBOLÇU ADINA NAMİZƏDLƏRİN SAYI ÜÇƏ ENİB



***Avropanın ən yaxşı futbolçusu adına namizədlərin sayı üçə enib.***

Seçim Antuan Qrizman, Kriştiano Ronaldo və Qaret Beyl arasında olacaq.

Luis Suares dördüncü, Lionel Messi isə beşinci pillədə qərarlaşıb.

Qalibin adı avqustun 25-də Monakoda keçiriləcək mərasimdə açıqlanacaq.

Xatırladaq ki, bunadək həmin mükafatı Lionel Messi (2011-ci il, 2015-ci il), Andres İnyesta (2012-ci il), Frank Riberi (2013-cü il) və Kriştianu Ronaldu (2014-cü il) qazanıb.




# KARATEÇİLƏRİMİZ BEYNƏLXALQ TURNİRDƏ 7 MEDAL QAZANIBLAR

***Karateçilərimiz Ərzurumda 13-cü “Palandökən” beynəlxalq turnirində uğurla çıxış ediblər.***




Əsasən aşağı yaş qruplarında yarışa qatılan milli komandamızın üzvləri iki qızıl, bir gümüş və dörd bürünc medala sahib olublar.

Yeniyetmə və gənclərdən ibarət seçmə komandanın üzvlərindən Fəridə Əliyeva (21 yaşadək gənclər, 68 kq-dan yuxarı) və İsmayıl Quliyev (55 kq) çempion olublar. Roman Heydərov (gənclər və böyüklər milli komandası, kata) turnirin gümüş medalına, Asya Məlikova (21 yaşadək gənclər seçmə komandası, 50 kq) və Murad Hacızadə (16-17 yaşlı gənclər, 76 kq-dan yuxarı) isə bürünc mükafata sahib çıxıblar.

14-15 yaşlıların komanda kata yarışlarında Ceyhun İsmayılov, Ayxan Novruzov və Səbuhi Quluzadə üçüncü yeri tutublar. Ceyhun İsmayılov, həmçinin fərdi kata yarışlarında bürünc mükafat qazanıb.

Beynəlxalq dərəcəli hakimlər Cahangir Babayev və Vüqar Kərimov yarışı idarə edənlər arasında olublar.

Milli komandadan əlavə “Qaraqapan”, MKM, “Dostluq” və “Arpaçay” klublarının idmançıları da Ərzurumda beynəlxalq turnirdən müxtəlif mükafatlarla dönürlər.

“Palandökən” beynəlxalq karate turnirində 30 ölkədən 2 mindən artıq idmançı çıxış edib.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2216